YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

25 aprel 2026-cı il, şənbə

№ 071 (7138)

Qiyməti 60 qəpik



Milli azadlıqdan şirin nemət yoxdur!

# Heç kim unudulmur və heç nə yaddan çıxmır



Bax səh. 2

# Bakı - Pekin: qarşılıqlı inam, etimad və inkişaf prioritetləri

Bax səh. 3

## Milli irsin ən mühüm dayaqlarından biri - ağsaqqallıq ənənəsi

Bu günlərdə IX Qurultayına toplaşan Azərbaycan Ağsaqqallar Şurası təkmil struktur kimi fəaliyyət göstərir. Hazırda sıralarında 30 mindən çox üzvü birləşdirən Şuranın fəaliyyəti bütün ölkə ərazisini əhatə edir. Ötən dövrdə qurumun 81 şəhər və rayon təşkilatı formalaşıb.

Prezident İlham Əliyev Qurultay iştirakçılarına ünvanladığı müraciətində qurumun uğurlu fəaliyyətindən məmnunluğunu ifadə edərək bildirib ki, keçən əsrin sonlarında yaranan və sıralarında həyatını cəmiyyətə xidmətə həsr etmiş tanınmış xadimləri birləşdirən Azərbaycan Ağsaqqallar Şurası böyük yol keçərək bu gün də ölkəmizin inkişafına töhfə verir. “Şura ölkənin ictimai-siyasi və humanitar inkişafında, cəmiyyət həyatının aktual məsələlərinin həllində və gənc nəslin tərbiyəsində iştirak edir”, - deyə dövlətimizin başçısı vurğulayıb.

Hər bir xalqın tarixən formalaşan milli-mənəvi dəyərləri, həyat tərzi, yaşam fəlsəfəsi fərqlidir və onun identiqliyini şərtləndirir. Azərbaycan xalqının da əsrlərin sınağından çıxaraq bu günümüzədək gəlib çatan zəngin ənənələri, milli-mənəvi dəyərlər sistemi var. Məhz bu ənənələr, milli-mənəvi dəyərlər bizi bir xalq kimi yaşadır və bütövlüyümüzü təmin edir.

Tarixən bu dəyərlər sistemində böyüyə hörmət, ehtiram göstərmək ənənəsi xüsusi yer tutub. Prezident İlham Əliyev Azərbaycan xalqının qədim mənəvi-əxlaqi dəyərlərinə söykənən ağsaqqallıq ənənəsini...

Bax səh. 2




Bax səh. 4

## Nur saçan ömür: mənəvi dəyərlərin təcəssümü

## Geosiyasi reallıqlar qlobal xəritəni dəyişir

Bax səh. 5

## Çin Gəncədə avtomobil istehsal edəcək

Bax səh. 5

## Sabitliyin və yüksək etimadın göstəricisi

Prezident İlham Əliyev Azərbaycan-Latviya biznes-forumunda çıxışı zamanı ölkə iqtisadiyyatına yatırılan investisiyalardan bəhs edərkən bildirib ki, son 20 il ərzində Azərbaycan iqtisadiyyatına 350 milyard dollardan çox investisiya yatırılıb və həmin sərmayələrin təqribən 170 milyard dolları xarici investisiyalardır. Dövlət başçısı sərmayə qoyuluşlarında bir sıra mühüm amillərin, o cümlədən dayanıqlı sabitlik, əhatəli islahatlar, güclü iqtisadi iradə və s. faktorların rol oynadığını xatırladıb.

Ölkəmizdə əlverişli və sağlam investisiya iqliminin mövcud olduğunu deyən Milli Məclisin deputatı Vüqar Bayramov hesab edir ki, sahibkarlar üçün vergi yükünün optimallaşdırılması, bölgələrdə, o cümlədən azad ərazilərdə və Naxçıvanda yerli və xarici investorlar üçün müxtəlif güzəşt və iqtisadi stimulların verilməsi sərmayə qoyuluşlarının artmasında mühüm rol oynayır. Millət vəkili iqtisadi idarəetmədə elektron xidmətlərin genişlənməsinin və şəffaflığın artırılmasının da sərmayə axıcılığı üçün əlverişli stimullar yaratdığını qeyd edib. Eyni zamanda, investisiya mühitinin yaxşılaşdırılması sayəsində qeyri-neft sektoruna qoyulan xarici investisayaların da həcminin artdığını vurğulayıb.

Müstəqilliyi qazandıqdan etibarən Azərbaycan xarici investorlarla əməkdaşlığa xüsusi önəm verərək dünyanın aparıcı şirkətləri ilə birlikdə həm ölkəmiz, həm də region üçün mühüm əhəmiyyət kəsb edən layihələrə imza atıb. Eyni zamanda, sərmayə qoyuluşlarının...

Bax səh. 6



## Makronun İrəvan səfəri: alt məqsədlərdə nələr gizlənir?

Bax səh. 6




## 19-cu sənədin davamı...

Bax səh. 7



# Heç kim unudulmur və heç nə yaddan çıxmır

Tarix boyunca bəşəriyyət bir sıra çətin dönəmlərdən keçib, dəhşətli faciələrlə üzləşib. İkinci Dünya müharibəsi də öz miqyasına və əhatə dairəsinə görə bəşəri faciələrdən biridir. Amansız müharibə geniş coğrafiyalarda şəhər və kəndlərin dağıdılması, milyonlarla insanın həyatını itirməsi ilə nəticələnib.

Bu müharibənin fəsadları Azərbaycandan da yan ötməyib. Buna görə də müharibədə qəhrəmanlıqla vuruşaraq həyatlarını itirən soydaşlarımızın əziz xatirəsi qəlbimizdə yaşayır və bundan sonra da yaşayacaq. Dünən Prezident İlham Əliyev 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında Sərəncam imzalayıb. Bəhs olunan Sərəncam müvafiq kateqoriyadan olan vətəndaşların daim yüksək diqqət və qayğı ilə əhatə olunduqlarını bir daha təsdiqləyir.

**Arxa cəbhənin fədakarlığı**

İkinci Dünya mühaibəsində cəbhə xətti Azərbaycandan uzaqdan keçsə də, respublikamız ümumi qələbənin təmin olunmasına və faşizmin süqutuna sanballı töhfələr verib. Müharibənin elə ilk günlərindən bütün Azərbaycan cəmiyyəti düşmənə qarşı mübarizəyə köklənib. Müharibə illərində Azərbaycan xalqı həm ön, həm də arxa cəbhədə çox böyük qəhrəmanlıq və fədakarlıq nümunələri göstərib. Qısa müddətdə respublikada 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi yaradılıb. Azərbaycanın 700 mindən çox igid oğlu və qızı cəbhəyə yollanıb. Respublikamızı təmsil edən diviziyalar Qafqazdan Berlinə qədər şərəfli döyüş yolu keçərək düşmənə sarsıdıcı zərbələr vurublar. Həmvətənlərimizin  130 nəfəri Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 30 nəfəri "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif edilib. Azərbaycandan olan 170 min əsgər və zabit keçmiş SSRİ-nin müxtəlif orden və medalları ilə təltif olunub. İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov, Sovet İttifaqı Qəhrəmanları İsrafil Məmmədov, Aslan Vəzirov, Adil Quliyev, Ziya Bünyadov, Gəray Əsədov, Məlik Məhərrəmov, Mehdi Hüseynzadə, generallar Mahmud Əbilov, Akim Abbasov, Tərlan Əliyarbəyov, Hacıbaba Zeynalov və bir çox başqaları öz şücaətləri ilə xalqımızın tarixinə yeni qəhrəmanlıq səhifələri yazıblar...

Həmçinin İkinci Dünya müharibəsi illərində respublikamızda arxa cəbhənin fədakarlığı da minnətdarıq hissi ilə anılır. Respublikamızda qısa müddətdə iqtisadiyyatı cəbhəyə xidmət istiqamətinə yönəltmək məqsədi ilə böyük işlər aparıldı. Bakı, sözün əsl mənasında, döyüşən ordu üçün silah-sursat istehsalı mərkəzinə çevrilmişdi. Böyük çətinliklərə baxmayaraq, neftçilərimiz qəhrəmanlıq və fədakarlıq göstərir, cəbhəni və sənayeni yanacaqla təmin edirdilər. 1941-ci ildə respublikamızda 23,5 milyon ton "qara qızıl" çıxarılmışdı. Bu, SSRİ-də çıxarılan bütün neftin 71,4 faizini təşkil edirdi. Bütövlükdə, müharibə illərində Azərbaycan neftçiləri ölkəyə 75 milyon ton neft, 22 milyon ton benzin və digər neft məhsulları veriblər. Statistik məlumatda bildirilir ki, müharibə illərində keçmiş ittifaqda hər beş təyyarədən, tankdan və avtomobildən dördü Bakıdan göndərilən yanacaqla işləyib...

**Birdəfəlik maddi yardım veriləcək**

Heç kim unudulmur və heç nə yaddan çıxmır. Dövlət başçısının imzaladığı Sərəncama əsasən, 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 2750 manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 1500 manat məbləğində birdəfəlik maddi yardım veriləcək.

Bunun üçün Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 3 milyon manat vəsait ayrılacaq.

***Mübariz FEYİZLİ***

# Milli irsin ən mühüm dayaqlarından biri - ağsaqqallıq ənənəsi



Bu günlərdə IX Qurultayına toplaşan Azərbaycan Ağsaqqallar Şurası təkmil struktur kimi fəaliyyət göstərir. Hazırda sıralarında 30 mindən çox üzvü birləşdirən Şuranın fəaliyyəti bütün ölkə ərazisini əhatə edir. Ötən dövrdə qurumun 81 şəhər və rayon təşkilatı formalaşıb.

Prezident İlham Əliyev Qurultay iştirakçılarına ünvanladığı müraciətində qurumun uğurlu fəaliyyətindən məmnunluğunu ifadə edərək bildirib ki, keçən əsrin sonlarında yaranan və sıralarında həyatını cəmiyyətə xidmətə həsr etmiş tanınmış xadimləri birləşdirən Azərbaycan Ağsaqqallar Şurası böyük yol keçərək bu gün də ölkəmizin inkişafına töhfə verir. "Şura ölkənin ictimai-siyasi və humanitar inkişafında, cəmiyyət həyatının aktual məsələlərinin həllində və gənc nəslin tərbiyəsində iştirak edir", - deyə dövlətimizin başçısı vurğulayıb.

**Nəsillərarası varisliyin təminatçıları**

Hər bir xalqın tarixən formalaşan milli-mənəvi dəyərləri, həyat tərzi, yaşam fəlsəfəsi fərqlidir və onun identiqliyini şərtləndirir. Azərbaycan xalqının da əsrlərin sınağından çıxaraq bu günümüzədək gəlib çatan zəngin ənənələri, milli-mənəvi dəyərlər sistemi var. Məhz bu ənənələr, milli-mənəvi dəyərlər bizi bir xalq kimi yaşadır və bütövlüyümüzü təmin edir.

Tarixən bu dəyərlər sistemində böyüyə hörmət, ehtiram göstərmək ənənəsi xüsusi yer tutub. Prezident İlham Əliyev Azərbaycan xalqının qədim mənəvi-əxlaqi dəyərlərinə söykənən ağsaqqallıq ənənəsini  milli irsimizin ən mühüm dayaqlarından biri kimi səciyyələnirib. Dövlətimizin başçısı qeyd edib ki,  ağsaqqallara hörmət həm Azərbaycan şifahi xalq ədəbiyyatında, həm də yazılı ədəbiyyatında fundamental bir dəyər kimi daim ön planda yer alır. Təsadüfi deyil ki, xalqımızın tarixi keçmişini, adət-ənənələrini əks etdirən "Kitabi-Dədə Qorqud" dastanında ağsaqqal nəsihətinə və sözünə ehtiram ən yüksək əxlaqi keyfiyyət kimi təsvir olunub. Tarixən Azərbaycanda ağsaqqal insanlara yalnız yaşlarına görə hörmət bəslənilməyib. Dünya görmüş müdrik ağsaqqalın həyat təcrübəsinə istinad etməklə verdiyi nəsihətlər mütləq qaydada uğur hekayəsinə çevrilir. Qədim Oğuz elində yol göstərən, igidlərə ad verən və hər kəsin də dərin ehtiram bəsləyib qarşısında baş əydiyi, əlini öpdüyü Dədə Qorqud bir müdriklik simvoludur. İgidlər onun ağıllı nəsihətlərinə qulaq asır və hər zaman da həyat sınaqlarından üzüağ çıxırlar.

Bir məmləkətin və xalqın ayaqda qalması, var olması nəsillərarası varisliyin təmin olunmasından çox asılıdır. Uğur üçün dünənin, bu günün və sabahın vəhdətinə nail olmaq lazımdır. Bu baxımdan ağsaqqalların rolu əvəzsizdir. Onlar nəsillər arasında körpülər qururlar. Bu mühüm amilə diqqət çəkən Prezident İlham Əliyev vurğulayıb:  "Xalqımızın tarixi ənənələrini rəhbər tutaraq üzərlərinə düşən vacib missiyanı daim uğurla həyata keçirən ağsaqqallarımız cəmiyyətdə əxlaqi-mənəvi dəyərlərin qorunub saxlanmasının və nəsillərarası varisliyin təminatçısı olaraq çıxış edirlər. Eyni zamanda, milli dövlətçilik ənənələrinin davam etdirilməsi və vətəndaş həmrəyliyinin möhkəmləndirilməsində ağsaqqallarımızın müstəsna xidmətləri vardır".

**Tariximizin möhtəşəm zəfərləri**

Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsində və 2023-cü ildə 23 saatlıq lokal xarakterli antiterror əməliyyatında tariximizə qızıl hərflərlə yazılan möhtəşəm qələbələr qazandı. Torpaqlarımız ötən əsrin doxsanıncı illərinin əvvəllərindən etibarən Ermənistanın işğalına məruz qalmışdı. İşğal otuz il davam etsə də, Azərbaycan dövləti və xalqı bununla heç vaxt barışmadı. Prezident İlham Əliyev müdrik rəhbər olaraq ərazi bütövlüyümüzün və suverenliyimizin təmin olunması məsələsini əsas ümummilli ideya kimi ölkə gündəliyinin mərkəzində saxladı.



Aparılan siyasət, həyata keçirilən hazırlıqlar öz bəhrəsini verdi. 44 günlük müharibədə və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatında düşmən tam kapitulyasiyaya məruz qaldı. Azərbaycan ərazi bütövlüyünü və suverenliyini sırf öz gücünə hərbi-siyasi yolla təmin etdi.

Döyüşlərdə Azərbaycan xalqının bütün təbəqələrinin nümayəndələri iştirak edirdilər. Əsas ağırlıq isə, əlbəttə ki, gənclərin üzərinə düşdü. Onlar "Arxada Vətəndir!" deyib düşmənin üstünə şığıyır və misilsiz igidliklər göstərirdilər.  Nə idi döyüşlərdə Azərbaycan əsgərinə güc, inam verən, onu yenilməz edən? Sualın cavabı olaraq bir neçə amilə diqqət çəkmək mümkündür. Əsas məqamlardan biri isə, heç şübhəsiz ki, gənclərimizin aldıqları tərbiyə, böyüklərin onlara aşıladığı vətənpərvərlik  hissi ilə bağlı idi. "Məhz ağsaqqallarımızdan vətənpərvərlik və fədakarlıq tərbiyəsi alan gənclərimiz Vətən müharibəsində şanlı Zəfərimizin əldə olunmasında mühüm rol oynayıblar. 30 ildən çox torpaq həsrəti ilə yaşamış, müharibənin ağrı-acısını görmüş böyüklərimizin gənc nəslə aşıladığı milli qürur və Vətən sevgisi sayəsində xalqımızın müasir hərb tarixinə yeni bir səhifə yazıldı", - deyə Prezident İlham Əliyev vurğulayıb.

**Müasir dövrdə ağsaqqallıq institutunun mühüm əhəmiyyəti**

Müasir dövr bir sıra spesifik cəhətləri ilə fərqlənir. Dördüncü sənaye inqilabı dövrünü yaşayırıq və həyatımız sürətlə dəyişir. İnforrmasiya-kommunikasiya texnologiyalarının intensiv inkişafı əlaqələrin asanlaşması, məlumatlara çıxış imkanlarının genişlənməsi baxımından böyük üstünlüklər yaradır. Obrazlı şəkildə belə ifadə edirlər ki, indi hüdudsuz dünya internet vasitəsi ilə hər kəsin kiçik ovcuna sığır.

Lakin belə bir şəraitdə xalqların milli kimliyinə - dillərə, ənənələrə, mədəniyyətlərə təhdidlər də artıb. Eyni zamanda, sosial şəbəkələr üzərindən uşaqları, gəncləri ailələrdən və milli köklərdən ayırmağa çoxsaylı cəhdlər göstərilir. Bunların qarşısı alınmalı və milli kimliyimiz, milli maraqlarımız qorunmalıdır. Burada ağsaqqalların da üzərinə mühüm vəzifələr düşdüyünü bildirən Prezident İlham Əliyev qeyd edib: "Dünyada artan təhdidlər, xüsusilə də qloballaşma və sosial şəbəkə platformalarının zərərli təsirləri nəticəsində bir çox ölkələrdə milli-mənəvi və ailə dəyərlərinin deformasiyaya uğraması Azərbaycanda mövcud olan ağsaqqallıq institutunun əhəmiyyətini və rolunu daha qabarıq şəkildə vurğulayır. Gənclərimizi milli vətənpərvərlik və öz köklərinə bağlı ruhda yetişdirmək, onları düzgün yola istiqamətləndirmək ağsaqqallarımız qarşısında duran əsas vəzifələrdən biridir".

***Mübariz ABDULLAYEV***

# Bakı - Pekin: qarşılıqlı inam, etimad və inkişaf prioritetləri



## Azərbaycan ilə Çin arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsindədir



XXI əsrin siyasi-iqtisadi çağırışları bərabərtərəfli əməkdaşlıq, sülh və sabitlik, beynəlxalq hüquqa hörmət kimi ali prinsiplərlə tənzimlənir. Yeni dövrdə, xüsusilə regional ələqələrin inkişafı, qitələrarası inteqrasiyanın gücləndirilməsi, sivilizasiyalararası dialoqun yüksəldilməsi əsas prioritet kimi ön plana çıxır. Strateji əməkdaşlığın əsas formulu sayılan bu prinsiplər bütövlükdə geosiyasi mənzərənin aydın və əməkdaşlığa hədəflənən ştrixlərini özündə birləşdirir. Nəticə etibarı ilə, bu formul üzərindən inkişaf edən əməkdaşlıqlar qısa zaman kəsiyində oturuşmuş ikitərəfli əlaqələrə çevrilir - yeni nizamın mühüm bir parçası kimi qəbul olunur. Bu münasibətlər isə paralel olaraq həm siyasi, həm də iqtisadi meyarları ən üst səviyyəyə qaldırır. Son bir neçə ildə əsaslı bir mərhələ adlayan, özündə kompleks inkişaf imkanlarını əks etdirən Azərbaycan-Çin münasibətləri də məhz bu kontekstdə tənzimlənir.

**Strateji tərəfdaşlıqdan hərtərəfli strateji tərəfdaşlığa...**

Xüsusilə 2024-cü ilin iyulunda və ötən ilin aprelində imzalanmış strateji əlaqələrin qurulması və inkişaf etdirilməsi ilə bağlı bəyanatlar ikitərəfli münasibətlərə yeni nəfəs, yeni şəkil qazandırıb. İmzalanan sənədlər, müzakirə edilən məsələlər, o cümlədən, proqnozlaşdırılan geniş əməkdaşlıq sferası mühüm bir regionda gələcək onilliklərin iqtisadi xəritəsini müəyyənləşdirir. Ötən il aprelin 23-də imzalanan "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" isə ikitərəfli əməkdaşlıqda yeni səhifə açıb. Bu sənəd strateji tərəfdaşlıq səviyyəsinin ən yüksək səviyyədə inkişafına - Azərbaycan və Çinin genişmiqyaslı layihələr həyata keçirməsinə, vizasız rejimin tətbiqinə yol açıb, əməkdaşlıq isə siyasət və iqtisadiyyatdan humanitar mübadiləyə qədər getdikcə daha çox sahəni əhatə edir. Çinin Azərbaycandakı səfiri Lu Meyin mediaya müsahibəsində səsləndirdiyi kimi, hərtərəfli strateji tərəfdaşlığın qurulduğunun elan edilməsi Çin-Azərbaycan münasibətlərində yeni tarixi səhifə açıb. Səfir bildirib ki, iki ölkə liderinin əldə etdiyi konsensusu rəhbər tutaraq, hər iki tərəf siyasi qarşılıqlı etimadı dərinləşdirib, əməkdaşlıq potensialını üzə çıxarıb, insanlar arasında qarşılıqlı anlaşmaya töhfə verib və Çin-Azərbaycan hərtərəfli strateji tərəfdaşlığını yeni tammiqyaslı inkişaf mərhələsinə yüksəldib.

**İkitərəfli əlaqələrdə lider amili...**

Vurğulandığı kimi, iki ölkə arasında son illərdə siyasi dialoq, iqtisadi tərəfdaşlıq əlaqələri genişlənir - üst-üstə düşən maraqlar, uzlaşan mövqelər yaxın təmaslar və xüsusilə də dövlətlərarası münasibətlərin formalaşmasında və inkişafında liderlərin şəxsi münasibətləri mühüm rol oynayıb. İki ölkənin rəsmiləri arasında səfərlər intensivləşib, bütün sahələr üzrə danışıqlar və razılaşmalar dinamik xarakter alıb. Çinin Sədri Si Cinpin ikitərəfli münasibətlərin yüksək dinamika ilə inkişafında Azərbaycan Prezidentinin rolunu həmişə yüksək dəyərləndirib və cənab İlham Əliyevi Çinin böyük dostu adlandırıb. Beləliklə, dinamik və işgüzar xarakter daşıyan bu əlaqələr yeni mərhələdə yeni müstəviyə qədəm qoyur. Eyni zamanda, dövlət başçılarının üzbəüz görüşləri, telefon danışıqları, məktub mübadiləsi, beynəlxalq tədbirlərdəki təmaslar əsasında formalaşmış sıx dialoqu, qarşılıqlı hörmət və etimadı Azərbaycan-Çin münasibətlərinin müxtəlif sahələrdə dərinləşməsində əvəzsiz rol oynayır. Səfir də qeyd edib ki, ikitərəfli mübadilələr getdikcə mütəmadi xarakter alır. Prezident İlham Əliyevin 2025-ci ilin aprel ayında Çinə dövlət səfərindən sonra Azərbaycan lideri Tyantszində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının sammitində və Çin xalqının Yaponiya işğalçılarına qarşı Müqavimət Müharibəsində və faşizmə qarşı müharibədə Qələbənin 80-ci ildönümünün qeyd olunmasında iştirak etmək üçün 30 avqust - 3 sentyabr tarixlərində Çində ikinci dəfə səfərdə olub.

**Suverenlik prinsipi qorunur və tanınır...**

Azərbaycan və Çn dövlətləri ərazi bütövlüyünə və suverenliyə qarşılıqlı hörmət prinsipini daim yüksək dəyərləndiriblər. Bunun nəticəsidir ki, Bakı hər zaman "Vahid Çin" prinsipini qətiyyətlə dəstəkləyir, dünyada yalnız bir Çinin mövcudluğunu, Çin Xalq Respublikası hökumətinin bütün Çini təmsil edən yeganə qanuni hökumət olduğunu, Tayvanın isə Çin ərazisinin ayrılmaz bir hissəsi olduğunu tanıyır - Azərbaycan istənilən formada "Tayvanın müstəqilliyi"nə qarşı qətiyyətlə çıxış edir və Tayvan boğazının iki sahili arasındakı münasibətlərin dinc inkişafını, habelə Çin Hökumətinin Çinin birləşdirilməsi istiqamətində səylərini dəstəkləyir. Çin tərəfi də öz növbəsində Azərbaycan tərəfinin Cənubi Qafqazın inkişafı üçün təklif etdiyi sülh gündəliyini qətiyyətlə dəstəkləyir və konfrontasiyanın saxlanmasına yönəlmiş geosiyasi intriqaları qeyri-səmərəli hesab edir. Qeyd edək ki, "Tayvan problemi" uzun illərdir ki, davam edir və məsələ ilə bağlı Azərbaycanın mövqeyi birmənalıdır - Bakı "vahid Çin" siyasətini dəstəkləyib. Səfir müsahibəsində bu məqama toxunaraq qeyd edib ki, siyasi qarşılıqlı etimad daim möhkəmlənir. Prezident İlham Əliyev Çin hökumətinin milli birliyə yönəlmiş bütün səylərinə dəstəyini aydın şəkildə bildirib. Azərbaycan tərəfi dəfələrlə vahid Çin prinsipinə sadiqliyini təsdiqləyən və Tayvanın müstəqilliyinin tərəfdarı olan separatçı qüvvələri pisləyən bəyanatlar verib: "Çin və Azərbaycan, Qlobal Cənub ölkələri olaraq, BMT, ŞƏT və Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM) kimi çoxtərəfli mexanizmlər çərçivəsində səmərəli əməkdaşlıq edir, birlikdə həqiqi multilateralizmi tətbiq edir və beynəlxalq bərabərliyi və ədaləti müdafiə edirlər".

**Praqmatik əməkdaşlığın nəticələri ...**

İki ölkə arasında iqtisadi-ticari əlaqələr də yüksək səviyyədədir. Ötən il Çin və Azərbaycan arasında ikitərəfli ticarət dövriyyəsi 4,87 milyard ABŞ dollarına çataraq ardıcıl üçüncü dəfə rekord nümayiş etdirib və yüksək artım tempini qoruyub. Bu ilin əvvəlində Çin ilk dəfə Azərbaycanın üçüncü ən böyük ticarət tərəfdaşına çevrilib. Bu ilin yanvar-fevral aylarında iki ölkə arasında ikitərəfli ticarətin dəyəri 780 milyon ABŞ dollarına çatıb. İki tərəf arasında iqtisadi münasibətlərin tarixi nöqtəyə çatmasını Çin səfiri də müsahibəsində vurğulayıb. O bildirib ki, Çin və Azərbaycan "Bir kəmər, bir yol" layihəsinin reallaşdırılması üzərində birlikdə çalışır, Trans-Xəzər marşrutu üzrə Çin-Avropa dəmir yolu xətti isə Orta Dəhliz vasitəsilə əsas mal tədarükünü təmin edir və qlobal istehsal və təchizat zəncirinin sabitliyinin qorunmasında mühüm rol oynayır. Səfir qeyd edib ki, Prezident İlham Əliyevin cari ilin əvvəlində mətbuata müsahibəsində qeyd etdiyi kimi, Çinlə praqmatik əməkdaşlıq Azərbaycanın strateji qərarı olub və layihələrin icra peşəkarlığı, keyfiyyəti və sürəti bu seçimin düzgünlüyünü təsdiqləyir. Eyni zamanda, Azərbaycan Çinin altı şəhərində ticarət evləri açıb, "Made in Azerbaijan" brendi altında getdikcə daha çox keyfiyyətli mallar Çin bazarına daxil olur və istehlakçılar arasında böyük populyarlıq qazanır.

**Münasibətlərdə Orta Dəhliz amili...**

İkitərəfli əlaqələrdə Orta Dəhliz amili isə xüsusi əhəmiyyət daşıyır. Orta Dəhliz vasitəsilə Şərq-Qərb ticarət yolunun ən aparıcı logistik mərkəzlərindən sayılan Bakı yeni dövrdə bu əlaqələrin şaxələndirilməsinə də töhfə verir. Çin regional bağlantının gücləndirilməsi, regional iqtisadi inkişafa töhfə verilməsi və qlobal istehsal və təchizat zəncirinin sabitliyinin təmin edilməsində "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu"nun (TBNM) mühüm roluna böyük əhəmiyyət verir. Səfir bildirib ki, 2025-ci ildə TBNM üzrə yükdaşımaların həcmi yeni rekord səviyyəyə çataraq 4,7 milyon ton olub. Bu ilin birinci rübündə Trans-Xəzər marşrutu üzrə Çin-Avropa yük qatarları (Sian) ilə ümumilikdə 85 qatar yola salınıb ki, bu da illik müqayisədə 150 % faiz artım deməkdir: "Çin Azərbaycan tərəfi ilə birlikdə "Bir kəmər, bir yol" layihəsini həyata keçirməyə davam edəcək və TBNM-in ötürmə qabiliyyətini artıracaq. Onu da vurğulamaq istəyirəm ki, Çin iki ölkə arasında yol əlaqəsini və transsərhəd nəqliyyat əməkdaşlığını yeni səviyyəyə çıxarmaq üçün Azərbaycanla avtomobil daşımaları üzrə hökumətlərarası beynəlxalq sazişlərin imzalanmasına fəal şəkildə töhfə verməyə hazırdır".

**Yaşıl enerji gündəliyi dəstəklənir**

İkitərəfli əlaqələrdə yaşıl gündəlik də mühüm əhəmiyyət daşıyır. İmzalanan strateji tərəfdaşlıq sənədlərində tərəflərin iqlim dəyişikliyi ilə mübarizədə, o cümlədən "yaşıl" enerji sahəsində əməkdaşlığa, iki ölkənin müəssisələrini yeni enerji mənbələrinə əsaslanan yeni istehsal, enerjinin saxlanması, yeni enerji daşıyıcıları, elektrik enerjisinin ötürülməsi, enerjiyə qənaət və emissiyaların azaldılması və s. kimi yaşıl və aşağı karbonlu texnologiyalar sahələrində əməkdaşlığı dərinləşdirməyə təşviq etməyə, təmiz enerji sahələrində əməkdaşlıq üçün qlobal tərəfdaşlığın qurulmasını birgə təşviq etməyə hazır olduqları xüsusi şəkildə bildirilir. Çinin səfiri də vurğulayıb ki, bərpa olunan enerji mənbələri (BOEM) sahəsində əməkdaşlıq Çin və Azərbaycan arasında praqmatik əməkdaşlığın mühüm istiqamətidir. İki ölkənin yaşıl inkişaf konsepsiyaları əhəmiyyətli dərəcədə üst-üstə düşür: "Məhz Çin texnologiyaları və avadanlıqları Azərbaycanın yaşıl inkişafa nail olmasına imkan yaradır. Çin və Azərbaycan arasında BOEM sahəsində əməkdaşlıq səmərəli nəticələr verib. Çin kapitalının iştirakı ilə fəaliyyət göstərən müəssisələr fotovoltaik və külək enerjisi üzrə irimiqyaslı əməkdaşlıq layihələrinin həyata keçirilməsinə qoşulub və bir sıra mühüm nəticələr əldə edib".

2023-cü ilin oktyabrında Çin şirkəti tərəfindən Qobustanda inşa edilmiş 230 meqavat gücündə günəş elektrik stansiyası elektrik enerjisi istehsalı üçün Azərbaycanın enerji şəbəkəsinə uğurla qoşulub. Bu, Çinin Azərbaycanda BOEM sahəsində iştirak etdiyi ilk irimiqyaslı layihə sayılır. 2025-ci ilin iyununda Mingəçevirdə Çin şirkətlərinin iştirakı ilə inşa edilmiş Azərbaycanın ən böyük istilik elektrik stansiyası "8 Noyabr" istismara verilib. Prezident İlham Əliyev bu layihəni "beynəlxalq əməkdaşlığın yaxşı nümunəsi" adlandırıb. 2026-cı ilin yanvarında Çin şirkəti tərəfindən həyata keçirilmiş "Xızı-Abşeron" külək enerjisi layihəsini də vurğulamaq yerinə düşər - bu, Cənubi Qafqaz regionunda ən böyük külək enerjisi layihəsidir.

**Süni intellekt sahəsi üzrə əməkdaşlıq**

Azərbaycan hər zaman müasir innovativ çağırışları nəzərə alıb - yeni dövrün aparıcı komponentlərindən birinə çevrilən süni intellekt sahəsinin inkişafı yeni prioritetlər sırasına qədəm qoyub. Ötən il Prezident İlham Əliyev tərəfindən imzalanan "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün Süni İntellekt Strategiyası" və " Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026-2029-cu illər üçün Strategiya"nın təsdiq edilməsi haqqında Sərəncam da bunları təsdiqləyir. Çinin bu sahədə xüsusi inkişaf tempi əldə etməsi isə sözügedən müstəvidə ikitərəli münasibətləri yaxınlaşdırır. Qeyd edək ki, Çin hazırda süni intellekt sahəsində patentlərin sayına görə dünyanın ən böyük ölkəsidir. Ölkədə süni intellektin əsas bazar həcmi 1,2 trilyon yuanı (165,5 milyard ABŞ dolları - red.) ötüb, müvafiq sahə üzrə müəssisələrin sayı isə 6200-dən çoxdur ki, bu da onu qlobal intellektual transformasiyanın əsas hərəkətverici qüvvəsinə çevirir. Səfir deyib ki, Çin tərəfi Azərbaycan tərəfi ilə süni intellekt sahəsində qabaqcıl texnologiyaları və inkişaf təcrübəsini bölüşməyə, siyasi tədbirlər üzrə mübadilə, texniki dəstək, kadr hazırlığı və birgə tədqiqatlar vasitəsilə texnologiya sahəsində potensialı gücləndirməyə, rəqəmsal uçurumun aradan qaldırılmasına kömək etməyə, birlikdə parlaq "rəqəmsal gələcəyə" və "ağıllı gələcəyə" doğru irəliləməyə hazırdır.

**İkitərəfli qaydada viza rejiminin ləğvi cəmiyyətləri daha da yaxınlaşdırır**

İkitərəfli münasibətlərdə ən aparıcı məqamlardan biri qarşılıqlı vizasız rejimin tətbiqidir. Çinin ölkəmizə qarşı yanaşmasında sərgilədiyi əməkdaşlıq mövqeyi Bakının regional lider statusu ilə uzlaşır. Azərbaycan dünyaya açıq bir ölkədir - biz bərabərhüquqlu tərəfdaşlığı, investisiya mühitinin inkişafını, cəmiyyətlərarası inteqrasiyanı gücləndirməyi təşfiq edirik və bu yöndə addımlar atırıq. Viza rejiminin ləğvi ölkələrimiz arasında iqtisadi inteqrasiyanın dərinləşməsinə müsbət təsir göstərir - turistlərlə yanaşı, biznes dairlərinin nümayəndələri üçün də gediş-gəliş daha da asanlaşır ki, bu da nəzərdə tutulan layihələrin sürətlə həyata keçirilməsi anlamına gəlir. Viza rejiminin ləğvinin müsbət nəticələrindən biri də, heç şübhəsiz ki, xalqlar arasında daha sıx əlaqələrin qurulması, mədəni-humanitar, təhsil sahələrində əməkdaşlığın güclənməsidir. Cəmiyyətlərin yaxınlaşması isə dövlətlərarası münasibətlərin təməl sütunlarından biridir. Çin səfiri də bildirib ki, vizasız rejim sayəsində hər iki ölkədən olan turistlərin qarşılıqlı səfərlərinin dinamikasında davamlı artım müşahidə edilir. Azərbaycan ənənə və müasirliyi, eləcə də Şərq və Qərb mədəniyyətlərini birləşdirən unikal cazibəsi ilə getdikcə daha çox sayda çinli turist cəlb edir. İçərişəhər, Heydər Əliyev Mərkəzi və digər məkanlar yeni populyar turizm istiqamətlərinə çevrilib. 2025-ci ildə 60 mindən çox Çin vətəndaşı Azərbaycana səfər edib ki, bu da rekord göstəricidir.

Aviareyslərin sayının artırılmasına gəldikdə, bu gün "China Southern Airlines" və "Azerbaijan Airlines" aviaşirkətləri Pekin, Urumçi və Bakı arasında həftədə ondan çox birbaşa reys həyata keçirir. Bu isə iki ölkə əhalisinin səfərlərini əhəmiyyətli dərəcədə asanlaşdırır.

***Pərviz SADAYOĞLU***

# Nur saçan ömür: mənəvi dəyərlərin təcəssümü



























Aprelin 24-də Yeni Azərbaycan Partiyası (YAP) və "Modern İnkişaf və Ailə" İctimai Birliyinin birgə təşkilatçılığı ilə Azərbaycanın görkəmli alimi, Əməkdar elm xadimi, akademik Zərifə Əziz qızı Əliyevanın anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Nur saçan ömür: mənəvi dəyərlərin təcəssümü" mövzusunda tədbir keçirilib.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra "Əsl məhəbbət haqqında" sənədli filmi nümayiş olunub.

Çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, anadan olmasının 103-cü ildönümünü böyük hörmət və ehtiramla qeyd etdiyimiz Zərifə xanım Əliyeva istər peşəkar həkim-mütəxəssis, istər dəyərli elm xadimi, istərsə də vəfalı ömür-gün yoldaşı və qayğıkeş ana kimi Azərbaycan tarixində silinməz izlər buraxmış, yüksək mənəvi keyfiyyətləri və humanizm prinsiplərinə əsaslanan səmərəli ictimai fəaliyyəti ilə parlaq nümunə yaratmışdır: "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncamında vurğulandığı kimi, akademik Zərifə Əliyeva zəngin mənəviyyata sahib əsl ziyalı kimi mənalı ömür yolu keçmiş, əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr vermişdir. Onun zəngin elmi irsi Azərbaycanın tibb elmi tarixində müstəsna yer tutur. Ölkəmizdə traxomanın xəstəlik kimi aradan qaldırılması məhz Zərifə xanım Əliyevanın adı ilə bağlıdır. Görkəmli alim dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmış və yeni bir istiqamətin - peşə oftalmologiyasının əsasını qoymuşdur. Oftalmologiyanın aktual problemlərinə həsr edilmiş çoxsaylı tədqiqatların müəllifi olan Zərifə Əliyeva səmərəli pedaqoji fəaliyyəti ilə peşəkar mütəxəssislərin hazırlanmasına da mühüm töhfə vermişdir. Zərifə xanımın yetişdirdiyi həkimlər bu gün də onun elmi irsini və qabaqcıl ideyalarını layiqincə yaşadaraq ölkəmizi beynəlxalq müstəvidə müvəffəqiyyətlə təmsil edirlər".

Tahir Budaqov bildirib ki, Zərifə xanımın nəsillərə örnək həyat yolunun daha bir şərəfli səhifəsi milli mənəviyyatımıza xas ailə dəyərlərini layiqincə yaşatmasıdır: "Zərifə xanım Əliyeva Ümummilli Liderimiz Heydər Əliyev ilə ailə məsuliyyətini bölüşərək cənab İlham Əliyev kimi tarixi şəxsiyyət yetişdirmişdir. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri, Müzəffər Ali Baş Komandanımız İlham Əliyev Azərbaycanın dünəni, bu günü və gələcəyini müəyyən edən Heydər Əliyev yoluna sadiqlik nümayiş etdirərək Vətənə sədaqət andını əzm və ləyaqətlə yerinə yetirməklə xalqımıza misilsiz nailiyyətlər qazandırmış və şanlı Zəfərə imza atmışdır. Dövlət başçısının uzaqgörən siyasəti milli ləyaqətimizi özümüzə qaytarmaqla ölkəmizi dünyada söz və nüfuz sahibinə çevirmiş, Ulu Öndərimizin əminliklə söylədiyi "Vaxt gələcək, Azərbaycan dünyaya günəş kimi doğacaq" fikrini gerçəkləşdirmişdir. Bütün bunlar isə əminliklə söyləməyə əsas verir ki, Ulu Öndər Heydər Əliyevin və Zərifə xanımın ruhu şaddır".

YAP Sədrinin müavini vurğulayıb ki, bir çox mükafatlar və fəxri adlara layiq görülmüş Zərifə xanım Əliyeva, hər şeydən öncə, xalqımızın, sadə insanların məhəbbətini qazanmışdır ki, bu da onun ən qiymətli mükafatıdır: "Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Zərifə xanımı tanıyanlar, haqqında kitablardan, məqalələrdən oxuyanlar onun nurlu obrazını daim öz ürəyində saxlayırlar. Onun əziz xatirəsi qədirbilən Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır".

Tədbirdə çıxış edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov bildirib ki, Zərifə Əliyeva yalnız bir alim, həkim və müəllim kimi yox, həm də ailəsi, çevrəsi və ölkəsi üçün dəyərli bir insan olaraq qəlblərdə əbədi iz buraxmışdır: "Onun həyat yolu, əslində, hər bir qadının, ananın və mütəxəssisin arzusunu gerçəkləşdirən bir nümunədir. Bir ana olaraq Zərifə xanımın verdiyi tərbiyə və həyat dərsləri çox dəyərli və əvəzsizdir. Onun övladlarına verdiyi əxlaqi dəyərlər, onları yalnız öz sahələrində müvəffəqiyyətli insanlar etməklə qalmamış, həm də vətənlərinə xidmət etməyə həvəsləndirmişdir. Zərifə xanımın bu tərbiyəsi nəticəsində Prezident İlham Əliyev kimi bir lider yetişmişdir. Bir alim olaraq isə Zərifə xanım oftalmologiya sahəsindəki misilsiz nailiyyətləri ilə yalnız Azərbaycanda deyil, dünyada da çox böyük hörmət qazanmışdır. Onun apardığı tədqiqatlar, yeni müalicə üsulları və əsərləri, bu sahəyə verdiyi töhfələr bu gün də öz əhəmiyyətini qorumaqda və gənc həkimlərə, alimlərə yol göstərməkdədir".

YAP İdarə Heyətinin üzvü qeyd edib ki, Zərifə xanımın ən böyük mükafatı yalnız öz sahəsindəki müvəffəqiyyətləri deyil, həm də insanlara göstərdiyi mərhəmət, empatiya və öyrətdiyi dəyərlərlə bağlıdır: "O, sadəcə bir həkim deyil, eyni zamanda, bir insan olaraq hər bir xəstənin sağlamlığını düşünən, ona sevgi və şəfqət göstərən, həkimlik peşəsinin ən yüksək etik dəyərlərini özündə cəmləşdirən bir şəxsiyyət idi. Zərifə xanımın bu dəyərləri, onun mübarizəsi və göstərdiyi nümunə gələcək nəsillər üçün böyük bir irs və dərsdir. Zərifə xanımın həyat yolunda yaratdığı bu ideal, hər bir insanın həyatına ilham verməkdə, onlara doğru yol göstərməkdə davam edəcəkdir".

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin "Elmi-məlumat və təşkilati-metodik" bölməsinin müdiri, Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin sədr müavini Yazgül Abdıyeva çıxışında bildirib ki, Zərifə xanım Əliyeva insanlara nur bəxş edən, xeyirxahlığı həyat amalına çevirən nadir şəxsiyyətlərdən idi: "Yüksək mənəviyyatı, zəngin daxili aləmi və insanlara olan sonsuz sevgisi onu yaddaşlarda əbədi yaşadan əsas keyfiyyətlərdir. Onun mənalı ömür yolu bu gün də gələcək nəsillərə işıq saçan örnəkdir".

Yazgül Abdıyeva vurğulayıb ki, akademik Zərifə Əliyeva oftalmologiyanın aktual problemlərinə dair mühüm tədqiqatlar aparıb, xüsusilə Azərbaycanda geniş yayılmış traxomanın aradan qaldırılmasında böyük xidmətlər göstərib: "Eyni zamanda, kimya və elektron sənayesində çalışan insanlarda rast gəlinən peşəkar göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsi istiqamətində dəyərli elmi nəticələr əldə edib. Akademik Zərifə Əliyeva bir çox monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin, 150-yə yaxın elmi işin, 1 ixtiranın və 12 səmərələşdirici təklifin müəllifidir. Onun əsərləri bu gün də aktuallığını qoruyur. Zərifə xanımın oftalmologiya elminin inkişafına verdiyi töhfələr danılmazdır".

Çıxış edən Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü, "Modern İnkişaf və Ailə" İctimai Birliyinin sədri Zərifə Quliyeva bildirib ki, Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir: "Böyük və səmərəli elmi fəaliyyətinin nəticəsidir ki, Zərifə xanım keçmiş SSRİ məkanında oftalmologiya sahəsində ən nüfuzlu M.İ.Averbax adına mükafata layiq görülən ilk azərbaycanlı akademikdir. Bu gün onun adını daşıyan Milli Oftalmologiya Mərkəzi uğurla fəaliyyət göstərir və görkəmli alimin elmi irsi layiqincə davam etdirilir".

Onun sözlərinə görə, Zərifə xanım Əliyeva yalnız alim kimi deyil, həm də ailəsinə bağlı, qayğıkeş bir ömür-gün yoldaşı, müqəddəs ana kimi tanınırdı: "Ulu Öndər Heydər Əliyev Zərifə xanım haqqında danışarkən onu yüksək insani keyfiyyətlərə malik bir şəxsiyyət kimi xarakterizə edirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev vurğulayır ki, Zərifə Əliyeva öz həyatı ilə insanlara nümunə olub, elmə və xalqa sədaqətlə xidmət edib. Zərifə xanımın irsi bu gün də yaşayır və gələcək nəsillər üçün örnəkdir. Onun həyatı sadəcə bir alim ömrü deyil, həm də insanlara xidmətin, zəhmətin və yüksək mənəviyyatın təcəssümüdür".

Tədbir çərçivəsində uzun illər partiya sıralarında səmərəli fəaliyyət göstərən və ölkənin ictimai-siyasi həyatında fəal mövqeyi ilə seçilən Bilman Məhərrəm oğlu Vəliyev 75 illik yubileyi münasibətilə təbrik edilib və ona xatirə hədiyyəsi təqdim olunub.

Göstərilən diqqətə görə minnətdarlığını ifadə edən Bilman Vəliyev Ümummilli Lider Heydər Əliyevin əbədiyaşar ideyalarının, Prezident İlham Əliyevin məqsədyönlü siyasətinin və Yeni Azərbaycan Partiyasının uğurlu fəaliyyətinin Azərbaycana möhtəşəm nailiyyətlər qazandırdığını, ölkəmizin tərəqqi və Zəfər zirvəsinə yüksələrək keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyduğunu vurğulayıb.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonra konsert proqramı təqdim olunub.

# Geosiyasi reallıqlar qlobal xəritəni dəyişir

## Avropa Komissiyası təmiz enerjiyə keçiddə Azərbaycanla həmrəydir

Avropa Komissiyası geosiyasi risklər fonunda enerji bazarlarındakı qiymət artımı və yanacaq tədarükündəki fasilələrin yaranması səbəbindən Avropa İttifaqı (Aİ) ölkələrinin enerji siyasətini əlaqələndirməyə və təmiz enerjiyə keçidi sürətləndirməyə çağırıb. Komissiya neft və mayeləşdirilmiş təbii qaz tədarükünün əhəmiyyətli hissəsinin keçdiyi Hörmüz boğazının bağlanmasından sonra dünya bazarlarında vəziyyətin kəskin şəkildə gərginləşməsi fonunda bu ssenarinin Aİ üçün olduqca vacib əhəmiyyət daşıdığını bəyan edib. Təhlillərə görə, Yaxın Şərqdə münaqişə başlayandan bəri Aİ-nin qazıntı yanacağı idxalı xərcləri artıq hər gün 500 milyon avrodan çox artmaqla 24 milyard dollara çatıb. Təşkilat bu cür riskləri nəzərə alaraq, "AccelerateEU" planını qabaqlayıcı konsepsiya kimi təqdim edib. Avropa Komissiyasının vitse-prezident Teresa Ribera və enerji məsələləri üzrə komissar Dan Yorgensen tərəfindən təqdim edilən plan Aİ tərəfindən dəstəklənib.

**Hörmüz təhdidi Avropanı alternativlər axtarmağa vadar edir**

Mövcud vəziyyət və regionda proqnozlaşdırılması mürəkkəb olan fraqmentasiyalar bir çox qitə ölkələri, o cümlədən Avropa üçün Şərqdən gələn yüklərin, ələlxüsus da enerji daşıyıcılarının sabit və dayanıqlı nəqlinin istənilən dövrdə pozulmasına işarə edir. Hörmüz boğazının artıq qlobal təchizat logistikası kimi siyasi təhdid vasitəsinə çevrilməsi dünya ölkələrini və iri korporasiyaları dərindən narahat etməkdədir. Rusiya və Ukrayna arasında davam edən müharibə fonunda pozulmuş nəqliyyat-logistika zəncirinin ardınca, Hörmüz təchizatındakı tıxanmalar Aİ və digər region ölkələrini çıxış yolları axtarmağa vadar etməkdədir. Eləcə də Asiya ölkələri də ağır xammal xərclərindən əziyyət çəkir.

ABŞ Enerji İnformasiya İdarəsinin (EIA) məlumatlarına görə, Hörmüz boğazından gündəlik orta hesabla 21 milyon barel xam neft və kondensat daşınır. Bu həcm dünya üzrə dəniz yolu ilə daşınan neftin təxminən beşdə birini təşkil edir. Daşınan neftin 83 faizi Asiya bazarlarına (əsasən Çin, Hindistan, Yaponiya və Cənubi Koreya) yönəlir. Dünyanın ən böyük mayeləşdirilmiş təbii qaz ixracatçılarından biri olan Qətərin Avropaya mayeləşdirilmiş təbii qaz tədarükünün demək olar ki, hamısı bu keçid üzərindən aparılır. İranın Hörmüz boğazından keçən neft tankerlərindən hər biri üçün 2 milyon dollar rüsum tələb etməsi qiymətlərə kəskin təsir edir. Belə ki, bir kiçik tankerdə təxminən 10 min - 30.000 ton arası neft daşınır. İri həcmli "Aframax" tipli tankerlər isə təxminən 80.000 -120.000 ton arası neft daşıyır. Ümumilikdə, bu "rüsum" təkcə neftin bir barelini təxminən 20-30 dollar bahalaşdırır. Bura təchizatdakı ləngimələr, tankerlərin limanlara və tədarük məntəqələrinə müəyyən edilmiş vaxtdan bir neçə gün sonra çatması əlavə xərclər yaradır. Ona görə də, Aİ kritik enerji asılılığı yaşadığı mayeləşdirilmiş qaz nəqli üçün alternativlər axtarmağa məcbur olur.

**Pan-Avropa enerji təchizatçısı**

Mövcud vəziyyət Avropanın etibarlı qaz təchizatçılarından biri olan Azərbaycana olan ehtiyacları da artırmış olur. Respublikamızın yürütdüyü enerji siyasəti birbaşa yaxın tərəfdaşlıq və həmrəylik konseptinə əsaslanır ki, bu da enerji sıxıntısı ilə üzləşən ölkələrin xüsusi diqqətindədir. Bu, özünü ötən illər ərzində qonşu Gürcüstanın, Ukrayna, Belarus və digər dövlətlərin timsalında təsdiqləyib. Ötən il Azərbaycan Suriyada geoiqtisadi tablonu nəzərə alaraq bu ölkənin də enerji problemlərinin həllinə dəstək göstərən ilk dövlətlərdən biri oldu.



Beləliklə, Azərbaycan qaz istehsalının həcmi artdıqca enerji həmrəyliyinin halqasını böyüdərək digər ölkələrin də yanacaq sıxıntılarını həll etməyə çalışır. SOCAR 2026-cı ildə Avstriya və Almaniyaya qaz tədarükünə başlamaqla, nəql coğrafiyasını bir qədər də genişləndirdi. Bu ixrac addımı sayəsində Azərbaycan qazını alan ölkələrin sayı 16-ya çatıb. Həmin ölkələrin 12-si birbaşa Avropa İttifaqı (Aİ) ölkələridir. Bu isə Azərbaycanın Avropa regionunda ən güclü təchizatçı və Pan-Avropa təminatçısı olduğunu bir daha təsdiqləyir.

**Aİ bölgəsinə qaz ixracı 20 milyard kubmetrə çataçaq**

Hazırda Azərbaycan 25 milyard kubmetrdən çox qaz ixrac edir və yanacağın nəqli dayanmadan artır. Ötən il ölkəmizdə 51,5 milyard kubmetr təbii qaz hasil edilib ki, bu da 2024-cü illə müqayisədə 1,2 milyard kubmetr və ya 2,4 faiz çoxdur. Qaz ixracının 12,8 milyard kubmetri Avropaya, 9,6 milyard kubmetri Türkiyəyə, 2,3 milyard kubmetri Gürcüstana, 0,5 milyard kubmetr isə Suriyaya ixrac edilib.

Azərbaycanda qaz hasilatında əsas mənbə olan "Şahdəniz -2" layihəsi üzrə hasilat hər il artır və təkcə bu mənbədən hazırda illik 16 milyard kubmetr qaz istehsal edilir. "Şahdəniz"in əlavə ehtiyatlarından başqa Xəzərdə kəşf edilmiş "Abşeron" və "Ümid" yataqları, "Azəri-Çıraq-Günəşli" yataqlar blokundakı dərin qaz ehtiyatları, olduqca perspektivli "Şəfəq-Asiman", "Babək", "Zəfər-Məşəl" və başqa strukturlar da ölkəmizin potensialının artmasında mühüm rol oynamaqdadır. Əsas perspektivli yataqlardan biri olan "Abşeron" yatağında da hasilatın həcmində əhəmiyyətli artımlar müşahidə edilməkdədir. 2025-ci ildə bu yataqdan 1,5 milyard kubmetrdən çox qaz hasil edilib ki, bu, əvvəlki illə nisbətdə 2 dəfəyə yaxın artım deməkdir. Yataqda 350-360 milyard kubmetr qaz ehtiyatları ehtimal edilir. Digər qiymətləndirmələr bu yatağın ehtiyatlarının 400 milyard kubmetrdən də çox olduğunu deməyə əsas verir. Bu isə təkcə, "Abşeron"un Aİ-yə ən azı 20-25 qaz nəqlində perspektiv mənbə olacağını təsdiqləyir.

Mövcud proqnozlara görə, 2026-2028-ci illərdə ölkəmizin Avropa regionuna ixracı 20 milyard kubmetrə çata bilər. Növbəti illərdə ixracın artırılması üçün digər mənbələr də səfərbər olunacaq. Bu isə "Azərbaycan və Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nda nəzərdə tutulmuş hədəflərə çatmağı təmin edəcək.

**Mərkəzi Asiya ölkələri TAP-a qoşulur**

Xəzər regionuna zəngin yanacaq mənbəyi kimi xüsusi önəm verən Avropa İttifaqı məhz Azərbaycanın liderliyi sayəsində bölgənin digər ölkələrini - Türkmənistan, Özbəkistan, Qazaxıstanın da Cənub Qaz Dəhlizinə qoşulmasını və bununla da təkcə bu mənbədən Avropaya illik 100 milyard kubmetrə yaxın qaz nəqlinin əldə olunmasına çalışır. Aİ Mərkəzi Asiya-Xəzər regionlarından çoxşaxəli qaz nəqli tranziti şəbəkəsi yaratmaq niyyətindədir. Mərkəzi Asiyanın ehtiyatlarının Avropa bazarına çatdırılması istisna deyil. Türkmənistan qazının Avropaya nəqli üçün Azərbaycanın müəllifi olduğu TAP kəməri və Cənubi Qaz Dəhlizi marşrutu mövcuddur və işləkdir. Qalır türkmən qazını bu dəhlizə cəlb edərək Avropaya çatdırmaq. Bunun üçün hüquqi mexanizm və beynəlxaql sazişlər olmalıdır. Artıq bu istiqamətdə də hüquqi-iqtisadi təminatlar yaradılır və bu beynəlxalq öhdəliyi isə ilk növbədə Azərbaycan və Türkiyə öz üzərinə götürüb. Ötən ay Bakıda Azərbaycan və Türkiyə arasında təbii qaz sahəsində imzalanan saziş çərçivəsində Türkmənistan qazının Gürcüstan ərazisi ilə Türkiyəyə tədarükü ilə bağlı əldə olunmuş razılaşmaya əsasən, Türkmənistan qazı Bakı-Tbilisi-Ərzurum-TANAP vasitəsilə nəql olunacaq, gələcəkdə isə TAP-la Avropaya ixracı nəzərdə tutulur.

Xəzər bölgəsində qaz ixracını artırması Azərbaycanın Avropa və dünya enerji bazarında qaz ixracını böyütməklə regionun ən qüdrətli təchizatçısına çevirəcək. Bu amil isə Azərbaycan və Avropa İttifaqı ölkələri arasında iqtisadi və siyasi münasibətlərin də gündəliyini yeniləməklə sıx əməkdaşlıq platformasını möhkəmləndirəcək.

**TAP həm də "yaşıl enerji" dəhlizinə çevrilir**

Avropa Komissiyasının "AccelerateEU" planında yer alan prioritetlərdən biri təmiz enerjiyə keçidin sürətləndirilməsidir ki, bu amil də Azərbaycanla əməkdaşlıq üçün dərin iqisadi zəmin yaradır. Belə ki, Avropa Birliyinin dəstəklədiyi strateji planlardan biri kimi Trans-Adriatik Boru Kəməri (TAP) növbəti mərhələdə təbii qazla qarışıq hidrogen nəqli də nəzərdə tutulur. Bu, enerjinin de-kabonizasiyası və ya təmiz enerji dövrünə hazırlıq deməkdir. Hazırda Avropa Komissiyası təmiz enerjiyə keçid strategiyasına uyğun olaraq TAP konsorsiumunun tərəfdaşları, təchizatçı və alıcılarla bu istiqamətdə fəal məsləhətləşmələr aparır. TAP-ın icraçı direktoru Luka Skyeppati bildirib ki, kəmərlə təbii qazla bərabər, yaşıl hidrogenin nəqli üçün hazırlıq görülür.

Hidrogen tədarükü Cənub Qaz Dəhlizi Məşvərət Şurası Nazirlərinin son ildə keçirilən iclaslarında mütəmadi olaraq müzakirə olunub, istehsal olunacaq hidrogenin Avropaya ixracı təşəbbüsləri irəli sürülüb. Bunun ardınca, TAP konsorsiumu tərəfindən bir neçə ay əvvəl hidrogen daşınmasına hazırlıq məqsədilə boru kəməri sınaqdan keçirilib. Sınağın ilkin nəticələri ümidverici olub və ümumi rəy texniki imkanların və infrastrukturun hidrogen tədarükünə cavab verdiyini təsdiqləyib. Ancaq bununla yanaşı, kəmərin fiziki imkanlarının gücləndirilməsi, ötürücü stansiyalar və qurğularda, digər infrastrukturlarda zəruri modernləşdirmə işlərinin aparılması tövsiyə olunub. Bu məqsədlə tərəfdaşlar yeni enerji nəqli şəbəkəsinin yaradılmasına və inkişafına sərmayə qoyuluşlarını vacib hesab edirlər.

Qeyd edək ki, hidrogen və bioqaz perspektivli və daha təmiz yanacaq növlərindən hesab olunur. Hidrogen ($H_2$) kainatda ən çox yayılmış maddə və enerji mənbəyi olmaqla, öz yüngüllüyünə görə yer kürəsində molekulyar surətdə nadir rast gəlinir. Hazırda dünyada istehsal olunan hidrogenin əsas hissəsi təbii qazdan alınır. Bu proses zamanı atmosferə karbon qazı emissiyası daha təmiz texnologiya ilə aparılır.

Araşdırmalara görə, hidrogen təbii qazla birlikdə borular vasitəsi ilə ötürülə bilər. Bu baxımdan TAP-la hidrogenin daşınması ilkin mərhələdə qazla birlikdə həyata keçiriləcək. İlkin ssenariyə əsasən, hidrogenin nəqli TAP-la ötürülən təbii qazın 10 faizini təşkil edəcək. Bu, indiki həcm göstəcisi ilə ildə 1,1-1,2 milyard kub.metrə yaxın hidrogen deməkdir.

**Hidrogen nəqli Azərbaycanın "yaşıl strategiyası"na uyğundur**

TAP-la hidrogen nəqli Azərbaycan hökumətinin də maraqlarına və müasir enerji strategiyasına uyğundur. Respublikamızda həyata keçirilən enerji təhlükəsizliyi siyasətinin təməl hədəflərindən biri də bərpa olunan enerji mənbələrindən istifadənin gücləndirilməsindən ibarətdir. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədinin 5-ci bəndində ("Təmiz ətraf mühit" və "Yaşıl artım ölkəsi") iqlim dəyişikliyi və onunla mübarizə istiqamətində, eləcə də ölkəmizdə "yaşıl enerji" məkanı prinsiplərinə əsaslanan bərpa olunan enerjidən iqtisadiyyatın bütün sahələrində tətbiqi məsələləri öz əksini tapıb. Həmin hədəf prinsiplərinə uyğun olaraq, hazırda bərpa olunan enerji mənbələrindən istifadə, "yaşıl texnologiyalar"ın tətbiqinin genişləndirilməsi nəzərdə tutulur. Bu baxımdan Azərbaycan hidrogen istehsalında daha çox su resurslarına üstünlük vermək niyyətindədir.

Beləliklə, Azərbaycan TAP-la yaxın illərdə Avropaya ekoloji təmiz enerjinin - hidrogenin nəqlini də təmin etməklə dünyanın müasir enerji təhlükəsizliyində ən məsuliyyətli və etibarlı ölkə olmasını bir daha təsdiqləyəcək.

*E.CƏFƏRLİ*

# Çin Gəncədə avtomobil istehsal edəcək

## "CLW Chengli Group" və "SAGMOTO" ilə sazişlər imzalanıb

Çin şirkətləri Azərbaycanın sənaye şəhəri olan Gəncədə avtomobil istehsalı sahəsi yaratmaq niyyətindədir. Azərbaycan nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri zamanı bu məsələ müzakirə olunub. Gəncə Avtomobil Zavodu İstehsalat Birliyi ilə Çinin 2 şirkəti arasında əməkdaşlıq sənədi imzalanıb. Sənədləri Gəncə Avtomobil Zavodu İstehsalat Birliyi Müşahidə Şurasının Sədri Xanlar Fətiyev ilə "CLW Chengli Group" şirkətinin baş meneceri Don Şunquo və "SAGMOTO"nun baş direktorunun müavini He Vencun imzalayıb.

"CLW Chengli Group" şirkəti ilə imzalanan əməkdaşlıq sazişinə əsasən, tərəflər Azərbaycanda ticari və yük avtomobillərinin istehsalına (yığılmasına) başlamaq barədə razılığa gəliblər. Gəncə Avtomobil Zavodu İstehsalat Birliyi Çin şirkətinin Azərbaycanda elektrik şassilərinin satışı və satış sonrası xidməti, ehtiyat hissələri, sürtkü yağları və aksesuarların satışı, həmçinin təmir xidmətləri üçün eksklüziv distribütoru təyin edilib. İstehsal olunacaq nəqliyyat vasitələri ilkin mərhələdə daxili bazar üçün nəzərdə tutulsa da, gələcəkdə ixracının həyata keçirilməsi də planlaşdırılır.

"Shaanxi Automobile Group Commercial Vehicle Co Ltd" (SAGMOTO) ilə imzalanan əməkdaşlıq sazişi də tərəflərin Azərbaycanda ticari avtomobillərin yığımının nəzərdə tutur. Bundan başqa, Gəncə Avtomobil Zavodu İstehsalat Birliyi "SAGMOTO"nun elektrik və dizel Şassilərinin satışı və satış sonrası xidməti, ehtiyat hissələrinin, sürtkü yağlarının və aksesuarların satışı, təmir xidmətləri üçün eksklüziv distribütoru hüququnu əldə edib.

## Azərbaycanın avtomobil sənayesinin mərkəzi

Qədim İpək yolunun üzərində yerləşən Gəncə tarixi mövqeyini qoruyaraq, Şərq-Qərb nəqliyyat dəhlizinin mühüm mərkəzlərindən birinə çevrilib. Bu isə Azərbaycanın 2-ci böyük şəhərinin həm daxili bazar, həm də ixracyönümlü istehsal üçün böyük potensiala malik olduğunu göstərir. Şəhərin sənaye simalarından biri olan Gəncə Avtomobil Zavodu bölgənin nəhəng müəssisələrindən biridir. Hazırda 500-ə yaxın işçinin çalışdığı müəssisə yük və minik avtomobilləri, avtobuslar, traktorlar, xüsusi nəqliyyat vasitələrinin istehsalı üçün müasir yığım xətləri ilə təchiz olunmuş böyük sənaye kompleksi xarici şirkətlərlə birgə layihələrin icrasına xüsusi yer verməkdədir.

2004-cü ilin dekabrından fəaliyyətini bərpa edən Gəncə Avtomobil Zavodu Rusiyanın Naberejnıye Çelnı şəhərində yerləşən azlitrajlı avtomobillərin istehsalı üzrə zavodla bağlanan müqaviləyə əsasən "VAZ-11113"-"OKA" markalı avtomobillərin yığımı ilə istehsal sahələrini genişləndirib. Rusiyanın "UAZ" avtomobillərinin 10 modelinin yığımına başlayan zavod hazırda Rusiyanın "Kamaz" şirkəti ilə birgə "Kamaz" markalı yük və sənaye maşınları üzrə geniş kompeks qurub. Həmin maşınlar yol təmiri işləri zamanı və ya infrastruktur obyektlərinin tikintisi zamanı toplu və ya iri-kiçik hissəli yüklərin daşınması üçün istifadə olunur. Yeri gəlmişkən, azad əraziləndə yaradılan "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında "KamAZ" ASC ilə "Gəncə Avtomobil Zavodu" İB-in birgə müəssisəsi olan servis mərkəzinin təməli qoyulub və istehsal xətti qurulmaqdadır.

Zavodun istehsalı olan "Ural" və "Maz" yük maşınları sənayedə, azad ərazilərdə əsas nəqliyyat vasitələrindən biridir. Belarusla əməkdaşlıq çərçivəsində bu ölkənin tanınmış sənaye nəhəngləri zavodda öz istehsal planlarını gerçəkləşdirib və bir neçə ildir ki, "MAZ" avtomobillərinin yığımı təşkil olunub. İkitərəfli əməkdaşlıq çərçivəsində "MAZ" avtomobillərinin və traktorların yığımı daha da genişlənib və müəssisədə "Belarus" traktorlarının 10-a yaxın modeli yığılır. Belarusun "Dorelektromaş" və "Smorqon aqreqat zavodu" ilə razılığa əsasən, ekskovator, asfaltkəsən və qartəmizləyən maşınlar da yığılmaqdadır. Belarusun "Haller" şirkəti ilə müqavilə əsasında "MAZ" avtomobillərinin bazasında kommunal texnikaların yığılmasına başlanılıb və həmin avtomobillər məişət tullantılarının yığılması üçün istifadə edilməkdədir. Kommunal texnikaların Azərbaycanla yanaşı Türkiyə və Gürcüstanda satışı planlaşdırılır. Habelə, Belarusun "Bobruysk" ehtiyat hissələri və avadanlıqlar istehsalı zavodu ilə əməkdaşlıq müqaviləsi üzrə müəssisədə "MTZ 422" və "MTZ 622" markalı mini traktorların istehsal edilir.

2016-cı ilin may ayından etibarən Gəncə Avtomobil Zavodu ilk avtobusların yığılmasını həyata keçirməyə başlayıb. Eləcə də Azərbaycanda ilk dəfə olaraq konveyerdən "PALESSE KZS-575" markalı taxılyığan kombayn və "E-321" markalı elektrobus istehsal edilir. 2019-cu ilin iyul ayından zavod Finlandiyanın məşhur "Sampo" firması ilə əməkdaşlıq

## Finlandiya və İtaliya investorları Gəncədə

memorandumu çərçivəsində kənd təsərrüfatı texnikalarının yığımına başlayıb. İtaliyanın "SDF" qrupu ilə uzunmüddətli strateji əməkdaşlıq müqaviləsi üzrə müəssisədə "Deutz-Fahr 4100 W" və "Agrofarm" modellərinin yığımına başlanılıb.

Zavodun istehsal sahələrindən biri "Azmaş Lizinq" MMC-dir. 2019-cu ildən fəaliyyət göstərən MMC kənd təsərrüfatı təyinatlı texnikaların və avadanlıqların lizinq yolu ilə satışını təşkil edir həmçinin qısa bir müddət ərzində texnikaların lizinq yolu ilə satışında ölkə bazarında böyük bir payın sahibidir. Kənd təsərrüfatı ilə məşğul olan bütün vətəndaşlarımızın dövlətin ayırdığı 40 faiz subsidiyadan faydalanması üçün şirkətimiz gərəkli bütün prosedurların həyata keçirilməsində köməklik göstərir. Məqsədimiz, kənd təsərrüfatının inkişafına dəstək olmaq və bu sahədə fəaliyyət göstərən şəxslərə maksimum keyfiyyətli xidmət göstərməkdir.



Qeyd edək ki, Gəncə Avtomobil Zavodu ilə Çin şirkətləri arasında əməkdaşlığı 2007-ci ildən qurulub. Çinin "Çanqan" şirkəti arasında imzalanmış müqaviləyə əsasən, müəssisədə 7 modeldə ortatonnajlı yük maşınlarının yığımına başlanılıb və ötən illər ərzində 70-

## "BYD" Sumqayıtda elektrikli avtobusların istehsalına başlayır

dən çox "Çanqan" markalı avtomobil yığılaraq istifadəyə verilib. Çinin aparıcı maşınqayırma şirkətləri Gəncə ilə yanaşı, Bakı və Sumqayıtda da, regional istehsal sahələri qurmağa başlayıb. Hazırda "BYD" şirkəti tərəfindən Sumqayıt Kimya Sənaye Parkında elektrik mühərrikli avtobusların istehsalı layihəsi inkişaf etdirilir. Çin-Azərbaycan ortaq müəssisəsi olan "Azerbaijan Energy Automotive Factory" ötən il sentyabrın sonunda fəaliyyətə başlayaraq Sumqayıt Sənaye Parkında 300 avtobusun istehsalına start verib. Çinin "Yutong" şirkətinin Azərbaycanda elektriklə çalışan avtobus istehsalı da sənaye planları sırasında yer alır.

Çin şirkətləri ilə əməkdaşlıq təkcə Gəncə Avtomobil Zavodunun istehsal komplekslərinin inkişafı və istehsal çeşidlərinin artmasına fayda verməyəcək, eyni zamanda, ölkəmizdə avtomil sənayesinin inkişafında yeni mərhələ açacaq.

*E.CƏFƏRLİ*

# Sabitliyin və yüksək etimadın göstəricisi

## Son 20 ildə Azərbaycan iqtisadiyyatına yatırılan xarici investisiyaların həcmi 170 milyard dolları ötüb

Prezident İlham Əliyev Azərbaycan-Latviya biznes-forumunda çıxışı zamanı ölkə iqtisadiyyatına yatırılan investisiyalardan bəhs edərkən bildirib ki, son 20 il ərzində Azərbaycan iqtisadiyyatına 350 milyard dollardan çox investisiya yatırılıb və həmin sərmayələrin təqribən 170 milyard dolları xarici investisiyalardır. Dövlət başçısı sərmayə qoyuluşlarında bir sıra mühüm amillərin, o cümlədən dayanıqlı sabitlik, əhatəli islahatlar, güclü iqtisadi iradə və s. faktorların rol oynadığını xatırladıb.

Ölkəmizdə əlverişli və sağlam investisiya iqliminin mövcud olduğunu deyən Milli Məclisin deputatı Vüqar Bayramov hesab edir ki, sahibkarlar üçün vergi yükünün optimallaşdırılması, bölgələrdə, o cümlədən azad ərazilərdə və Naxçıvanda yerli və xarici investorlar üçün müxtəlif güzəşt və iqtisadi stimulların verilməsi sərmayə qoyuluşlarının artmasında mühüm rol oynayır. Millət vəkili iqtisadi idarəetmədə elektron xidmətlərin genişlənməsinin və şəffaflığın artırılmasının da sərmayə axıcılığı üçün əlverişli stimullar yaratdığını qeyd edib. Eyni zamanda, investisiya mühitinin yaxşılaşdırılması sayəsində qeyri-neft sektoruna qoyulan xarici investisiyaların da həcminin artdığını vurğulayıb.

### Sağlam və münbit investisiya mühiti

Müstəqilliyi qazandıqdan etibarən Azərbaycan xarici investorlarla əməkdaşlığa xüsusi önəm verərək dünyanın aparıcı şirkətləri ilə birlikdə həm ölkəmiz, həm də region üçün mühüm əhəmiyyət kəsb edən layihələrə imza atıb. Eyni zamanda, sərmayə qoyuluşlarının artmasında ən mühüm amillərdən biri ölkədə güclü sabitlik arxitekturası möhkəmlənib, sağlam və münbit investisiya mühiti təmin edilib. İnvestorların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici sahibkarlara bərabər fəaliyyət şəraitinin yaradılması, "İnvestisiya fəaliyyəti haqqında" və "Xarici investisiyaların qorunması haqqında" qanunların qəbul edilməsi, Rəqabət Məcəlləsinin qüvvəyə minməsi sərmayə cəlbediciliyini artırıb.

Azərbaycan hökumətinin bir sıra xarici ölkələrlə ikiqat vergi tutmanın aradan qaldırılması, investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər imzalaması da investisiya qoyuluşunu təşviq edib. Ölkəmiz beynəlxalq müstəvidə ikitərəfli əməkdaşlıq çərçivəsində 30-dək ölkə ilə sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər imzalayıb ki, həmin dövlətlərin investorlarının ölkəmizin iqtisadiyyatında potensial sərmayədar kimi xüsusi payı artmağa başlayıb.

Prezident İlham Əliyevin 2018-ci il yanvarın 18-də imzaladığı "İnvestisiya fəaliyyətinin təşviq edilməsi və xarici investorların hüquqlarının qorunması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncamının icrası, həyata keçirilən digər hüquqi və institusional islahatlar da sərmayə axıcılığının davamlılığını təşviq etməkdədir.

Nəticədə, 2003-2025-ci illər ərzində ölkə iqtisadiyyatına yönəldilən investisiyaların ümumi həcmi təxminən 350 milyard dolları ötüb ki, onun 170 milyard dolları xarici investisiyalardır. Bu, xarici investorların Azərbaycana olan etimadı, ölkəmizdə hökm sürən təhlükəsizlik və sabitlik mühitinin bariz göstəricisidir.



### Azad ərazilərdə sərmayəçilər üçün güzəştlər

Ölkəmizin ərazi bütövlüyü təmin olunandan sonra Azərbaycanın səyləri ilə regionda uzunmüddətli sülh, sabitlik və dayanıqlı inkişafın əsası qoyulub. Hazırda Azərbaycan xarici siyasətində artıq iqtisadi diplomatiyaya üstünlük verərək diqqətini yeni əməkdaşlıq əlaqələrinin qurulmasına, qeyri-neft sahələrinin, xüsusilə də ölkənin turizm potensialının daha da gücləndirilməsinə istiqamətləndirir.

Müasir inkişaf gündəliyində əsas prioritetlərdən biri isə müasir texnologiyalar, süni intellekt və "yaşıl enerji" sahələrinə investisiyaların cəlb olunmasıdır. Resurs zənginliyi ilə diqqəti cəlb edən işğaldan azad edilmiş ərazilərə xarici investorların marağı böyük olduğundan çoxsaylı iqtisadi stimullar, güzəştlər tətbiq olunmaqdadır. Dövlət başçısının "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Sərəncamına əsasən, azad ərazilərdə uçotda olan və fəaliyyət göstərən sahibkarlıq subyektləri 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətinə mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergidən, eləcə də sosial vergilərdən azad olunublar ki, bu amil həmin bölgəyə xüsusi axınları sürətləndirəcək.

Eləcə də, Azərbaycanın əlverişli coğrafi mövqeyi ölkəmizi regional iqtisadi siyasətin strateji mərkəzinə çevirir. Orta Dəhliz üzrə tranzit yük daşımalarının həcmi ildən-ilə artır. Gələcək illərdə, xüsusilə də Zəngəzur koridorunun işə düşməsi ilə bu göstəricinin daha da artması gözlənilir. Nəticədə, bu amillər xarici şirkətlərin fəaliyyəti və sərmayələrini daha da təşviq edəcək.

### Azərbaycanın investisiya reytinqi "BBB" səviyyəsinə yüksəlib

Məhz bu tədbirlər sayəsində Azərbaycanın beynəlxalq miqyasda investisiya cəlbediciliyi yüksəlib. "Standart & Poor's" və "Moods" reytinq agentlikləri Azərbaycanın investisiya və kredit reytinqini artıraraq "BB+" səviyyəsinə qaldırıb. Eyni zamanda, "Fitch Ratings" agentliyi Azərbaycanın yerli və xarici valyutada uzunmüddətli suveren investisiya reytinqini "pozitiv" proqnozu ilə "BBB" səviyyəsində təyin edib. Bütün bunlar bir daha göstərir ki, Azərbaycan inkişaf etmiş ölkə kimi dünyanın aparıcı investitorlarının daim diqqət mərkəzindədir.

Beynəlxalq Valyuta Fondu (BVF) dünya ölkələrində investisiya cəlbediciliyi mühiti ilə bağlı hesabatında Azərbaycanı ən yaxşı ölkələr qrupunda qərarlaşdırıb. Belə ki, ölkəmiz ən yaxşı investisiya mühitinə malik "Top-7"qrupunda yer alıb. BVF-nin reytinqində xarici investorlar üçün əlverişli münbit iş şəraitinin yaradılması, bütün hüquqi təminatlarla əhatə olunması təqdir edilir.

Hazırda Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyət göstərən xarici investisiyalı şirkətlərin sayı 7 mindən artıqdır. Təkcə, 2025-ci ildə Azərbaycanda qeydiyyata alınmış kommersiya hüquqi şəxslərin təxminən 900-ü xarici investisiyalı şirkət olub. Bu, ölkəmizdə müasir korporativ idarəetməyə əsaslanan, rəqabətli və dayanıqlı iqtisadiyyatın formalaşmasına mühüm töhfədir.

Azərbaycan iqtisadiyyatına daxili və xarici kapital qoyuluşlarında artım dinamikası 2026-cı ilin birinci rübündə də davam edib. Yanvar-mart aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 4 milyard 49,8 milyon manat və ya 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 14,9 faiz çox investisiya yönəldilib. Neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 44,6 faiz, qeyri neftqaz sektoruna yönəldilmiş investisiyaların həcmi isə 2,2 faiz çox olub. Ümumi sərmayənin 2 milyard 286,6 milyon manatı və ya 56,5 faizi məhsul istehsalı sahələrinin, 1 milyard 252,8 milyon manatı (30,9 faizi) xidmət sahələrinin, 510,4 milyon manatı (12,6 faizi) isə yaşayış evlərinin tikintisinin payına düşüb.

### 2026-cı ildə investisiya fəallığı davam edir

Ümumi sərmayənin 34,3 faizi dövlət, 65,7 faizi qeyridövlət sektorunun sərmayədarları tərəfindən qoyulub. Daxili mənbələrdən əsas kapitala yönəldilmiş investisiyanın dəyəri ümumi sərmayənin 72,2 faizini təşkil edib.

Xarici maliyyə mənbələrindən əsas kapitala 1 milyard 125,5 milyon manat məbləğində investisiya yatırılıb ki, bu da 2025-ci ilin eyni dövründəki göstərici ilə müqayisədə 17 faiz çoxdur. Xarici investisiyaların 941,3 milyon manatı neft-qaz sektoru, 184,2 milyon manatı isə qeyri-neft-qaz sektoru üzrə həyata keçirilib.

Azərbaycana yatırılan birbaşa xarici investisiyalar yatıran ölkələrin sırasında Böyük Britaniya,Türkiyə, Cənubi Kipr, İsveçrə, BƏƏ, Rusiya, ABŞ, Yaponiya, Macarıstan, Fransa və Hindistan sərmayədarlarının payı artıb.

Hazırda Azərbaycan tərəfdaş ölkələrlə, eyni zamanda biznes sektoru öz partnyorları ilə qarşılıqlı faydalı əməkdaşlığın dərinləşdirilməsi, yeni tərəfdaşlıq əlaqələrinin qurulması, qabaqcıl ideyaların və layihələrin tətbiqi və yeni investisiyaların cəlb olunması sahəsində təmasları daha da artırmaqdadır. Bu, Azərbaycan iqtisadiyyatına sərmayə yatırımlarının davamlılığını təmin etməklə, xarici biznesin fəallığını daha da gücləndirəcək.

**E.CƏFƏRLİ**

# Makronun İrəvan səfəri: alt məqsədlərdə nələr gizlənir?

## Ermənistan yolunu müəyyənləşirəcək: Aİ, yoxsa AİI

Fransa prezidenti Emmanuel Makron mayda İrəvana səfər edəcək. Səfər İrəvanda keçiriləcək Avropa Siyasi Birliyinin (EPC) sammiti ilə məhdudlaşmır - mayın 4-də sammitin yekunlaşmasının ardından, müəyyənləşdirilmiş protokola uyğun olaraq mayın 5-dən Makronun Ermənistana dövlət səfəri başlayacaq. Bu barədə Ermənistan Baş nazirinin müavini Tiqran Xaçatryan və Fransanın İrəvandakı səfiri Olivye Dekotini arasında keçirilən görüşdə məlumat verilib. Qeyd olunub ki, səfər çərçivəsində iki ölkə arasında bir sıra ikitərəfli məsələlər, o cümlədən Fransanın Şimal-Cənub nəqliyyat dəhlizi layihəsinin bir hissəsi olaraq Sisian-Kajaran yol hissəsinin tikintisində iştirakı müzakirə olunub. Xatırladaq ki, Fransa prezidentinin Ermənistana ilk səfəri 2018-ci ilin oktyabr ayında baş tutub. 2023-cü ildə Ermənistan mətbuatı Makronun 21 sentyabrda (Ermənistanın Müstəqillik Günü) gələcəyinin gözlənildiyini yazsa da, bu baş verməyib.




**Makron İrəvana niyə gəlir?**

Makronun İrəvana səfəri üzdə Avropa Siyasi Birliyinin toplantısında iştirak və ya ikitərəfli əlaqələr kontekstində görünsə də, bir sıra siyasi şərhçilər daha fərqli məqamlardan bəhs açırlar. Belə ki, bu səfərin alt məqsədi heç də sözügedən məsələlərlə məhdudlaşmır. Səfər daha çox:

- Ermənipərəst maraqların təzyiqi ilə yaradılmış Avropa İttifaqının Ermənistan Respublikasındakı Tərəfdaşlıq Missiyasının "təqdimat mərasimi"dir;
- Aprelin əvvəlində Kremldən Paşinyana qarşı edilmiş təzyiqə cavabdır;
- Seçki kampaniyasında hazırkı baş nazirə dəstəkdir;
- Gələn il Fransada keçiriləcək seçkilər öncəsi Makronun dividend axtarışıdır (erməni lobbisindən dəstək);
- Sülh prosesinə müdaxilə imkanlarını araşdırmaqdır.

Bu fikirləri dəstəkləyən ən mühüm məqam isə Makronun prezidentliyi dövründə bir dəfə də olsun digər iki Cənubi Qafqaz ölkəsinə səfər etməməsidir. Başqa sözlə, Makron əgər təmsil etdiyi ölkənin və ya qitənin (Aİ çərçivəsində) maraqları, iqtisadi əməkdaşlıq prioritetləri, qlobal siyasi dialoq kontekstində nə Azərbaycana, nə də Gürcüstana səfər etməyibsə, əksinə, ötən 8 ildə 2 dəfə İrəvana "təşrif buyurubsa", demək ortada fərdi, korporativ və ya daha başqa maraqlar mövcuddur.

**"Güc" nümayişi, yoxsa "tozlanmış xartiya" ənənəsi...**

Vurğulandığı kimi, bu səfər bir mənada Fransanın titmsalında Aİ-nin ermənipərəst "qolu"nun bölgədə "güc nümayişi"nə hesablanıb. Sirr deyil ki, Cənubi Qafqazda formalaşan sülh mühiti erməni lobbisinin "söz sahibi" olduğu Fransa başda olmaqla bəzi dövlətlərin maraqları ilə üst-üstə düşmür. Xüsusilə, sülhün Azərbaycanın irəli sürdüyü şərtlər əsasında formalaşması, ötən ilin avqustunda ABŞ-da rəsmi beynəlxalq təsdiqini tapması, bölgəyə əbədi sabitlik vəd etməsi bəzi dövlətlər kimi Fransanın da yuxusunu ərşə çəkitb. Paris, xüsusilə yeni nizamda aparıcı geoiqtisadi statusa malik Cənubi Qafqazda Ermənistanın müstəqil dövlət kimi təşəkkül tapmasını həzm edə bilmir - erməni lobbisi İrəvanın "iplərini" yenə də öz əlində saxlamaq üçün təzyiq yolları axtarır. Politoloqların düşüncəsinə görə, Makronun bu səfəri "əməkdaşlıq strategiyası" adı altında yenidən Ermənistanı boyunduruğa sürükləməkdi - sülhün nəticəsi isə Ermənistana "real dövlət" konsepsiyası vəd edir. Fransa bu konsepsiya nəticəsində özünün Cənubi Qafqazdakı dayağını itirmiş olacaq.

Maraqlıdır ki, bu səfər 2025-ci ilin yanvarında İrəvan ilə Vaşinqton arasında tələm-tələsik şəkildə imzalanan xartiya ilə müqayisə olunur. Qeyd edək ki, həmin vaxt artıq hakimiyyət ilə vidalaşan prezident Bayden və dövlət katibi Blinken Cənubi Qafqazı yenidən konfrantal zonaya çevirmək üçün bu yola əl atmışdılar. Nəhayətində isə, Donald Trampın prezidentliyi dövründə həmin "sənəd" heç yada da düşmədi. Makron da eyni yolu gedir - prezidentliyinin bitməsinə bir ildən də az vaxt qaldığı bir zamanda Ermənistandan "əməkdaşlıq" adı altında fərqli maraqlara xidmət edən güzəştlər qoparmağa, İrəvanı Parisdən asılı salmağa niyyətlənib. Nəzərə alaq ki, Fransa Ermənistanın ən mühüm silah təchizatçısıdır və ötən 6 ildə İrəvanı yeni müharibəyə təhrik edən bir dövlətdir. Bu mənada, səfər heç də sadəcə "ikitərəfli əməkdaşlıq" şüarları ilə bitməyəcək. Ötən günlərdə Parisin əlaltısı qismində çıxış edən Belçika və Niderland parlamentlərinin "qətnamə" oyunları da bunu təsdiqləyir.

**Aİ missiyası, Kremlin "hədəsi": Makron Rusiyaya mesaj verəcəkmi?**

Digər tərəfdən, səfər həm də seçkiöncəsi bəzi ştrixləri ilə ön plana çıxır. Təxminən bir ay 10 gündən sonra Ermənistanda baş tutacaq parlament seçkiləri olduqca mühüm əhəmiyyət kəsb edir: həm Ermənistanın siyasi gələcəyi üçün, həm də regionda sülh prosesinin inkişafı üçün. Bu seçki İrəvanın Rusiya orbitindən tam qopmasına da yol aça bilər. Məhz bu "təhlükə"ni önləmək üçün Kreml seçkilərdə Rusiya pasportu daşıyan Karapetyanın iştirakında israr edir. Paralel olaraq bu ayın ilk günündə Moskvada baş tutan Paşinyan-Putin görüşünün gərgin notlar altında keçməsi də Aİ-ni narahat edir. Bəlli olduğu kimi, Putin Paşinyana açıq kontekstdə Aİ və ya AİI arasında seçim etməli olduğunu bildirmişdi. Ermənistanın AİI ilə münasibətləri dayandırması ölkənin iqtisadi fiaskosu deməkdir. Ermənistanın ən mühüm iqtisadi tərəfdaşları və ticarət dövriyyəsi məhz AİI ölkələri ilədir. Aİ ilə əlaqələrin dayandırılması isə şəxsi mənada Paşinyanın siyasi bitişi anlamına gəlir. Bu mənada, səfər zamanı "Şimal-Cənub nəqliyyat dəhlizi" adı altında Ermənistanın "siyasi qiymətini artırmaq" cəhdi diqqət çəkir. Makron Ermənistanın Aİ tərəfindən "dəstəkləndiyinin" Rusiyaya nümayiş etdirmək, yuxarıda qeyd edilən Aİ missiyasının "təqdimatını" keçirmək üçün İrəvana "dövlət" səfəri edir. Nəzərə alaq ki, bu missiya birmənalı şəkildə Paşinyanın dəstəklənməsinə hesablanıb - eyni zamanda, ölkədə köhnə qitənin mənafeyini təmin etmək üçün gəlir.

**Erməni lobbisi Makronu bağışlamır...**

Səslənən tezislər arasında Makronun Fransada gələn il baş tutacaq seçkilərdə özünün "xələf"inə yaxşı bir "hədiyyə" vermək istəyi də yer alır. Qeyd edək ki, Fransa prezidenti 2027-ci ildə ikinci prezidentlik müddətinin başa çatmasından sonra siyasi fəaliyyətini davam etdirməyəcəyini bəyan edib. Xatırladaq ki, 2022-ci ildə ikinci müddətə prezident seçilən Emmanuel Makron Fransada konstitusiya ilə müəyyən edilmiş qaydalara uyğun olaraq 2027-ci ildə sonuncu mandatını tamamlayacaq. Əsas rəqibi Marin Le Penə qarşı isə onun iki namizədinin olduğu bildirilir:

- Qabriel Attal: İntibah Partiyasının baş katibi, 2024-cü ildə 9 ay Fransanın baş naziri;
- Eduard Filip: hazırda Havr şəhərinin meri, 2017-2020-ci illərdə Foansanın baş naziri.

Hər iki namizəd Le Penin qarşısında acizdir. Səbəblər isə çoxdur. Bu səbəblərin Ermənistanla bağlı hissəsi isə Makronun Vətən müharibəsi dövründə bütün "cəbhələrdə" Azərbaycana məğlubiyyətidir. Erməni lobbisi bunu Makrona bağışlamır - o baxımdan, Makronun xələfinin də lobbi tərəfindən dəstəklənəcəyi sual altındadır. Makron isə "səhvini düzəltmək" üçün son "həmləsini" etməyə çalışır. Siyasi şərhçilər səfər zamanı bağlı qapılar arxasında Cənubi Qafqazda sülh prosesinin də müzakirə predmeti olacağını idida edirlər. Məhz Azərbaycanın təkidi və qətiyyəti ilə prosesdən kənarlaşdırılan Fransa son mərhələdə yenidən özünün "müdaxilə" imkanlarını araşdırmaq istəyir - amma bu mümkün deyil. Çünki Cənubi Qafqazda gedən sülh prosesi Azərbaycanın nəzarətində inkişaf edir. Fransanın Ermənistanı yenidən eskalasiya şirniklənidirməsi isə İrəvanın özü üçün acınacaqlı nəticələr vəd edir. Paris 2020, 2023-cü illərdə olduğu kimi bu dəfə də haraya çatmayacaq...

**P. İSMAYILOV**

# İqtisadi inkişafın aparıcı qüvvəsi...

## Sahibkarlıq güclü iqtisadiyyatın təməlidir

Sahibkarlığın inkişafı hər bir ölkənin iqtisadi yüksəlişində mühüm rol oynayır. Sağlam və əlverişli biznes mühitinin formalaşdırılması üçün sahibkarlığın genişlənməsi xüsusi əhəmiyyət daşıyır. Hazırda ölkə rəhbərliyinin həyata keçirdiyi ardıcıl iqtisadi siyasi strategiyanın əsas istiqamətlərindən biri də məhz bu sahənin inkişaf etdirilməsidir. Milli iqtisadiyyatın sabit və balanslı şəkildə böyüməsinin təmin olunması, eyni zamanda regionların daha sürətli inkişafı dövlətimizin qarşısında duran prioritet məqsədlər sırasındadır. Bu istiqamətdə qəbul edilən dövlət proqramları isə uğurla icra olunur.

Təsadüfi deyil ki, bu gün siyasətimizin mühüm hissəsini sahibkarlara dövlət dəstəyinin artırılması təşkil edir. Dövlət-sahibkar münasibətləri inkişaf etdirilir, sahibkarlığın dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılır. Sahibkarların hüquqlarının müdafiəsinin işlək mexanizmləri yaradılıb, onların tətbiqi nəticəsində müdaxilə halları azalıb. Sahibkarlığın məsləhət, informasiya təminatının gücləndirilməsi və işgüzar əlaqələrinin inkişafı istiqamətində mütəmadi tədbirlər də həyata keçirilməkdədir.

**Böyük nüfuza malik sahibkarlarımız...**

Azərbaycanda sahibkarlıq fəaliyyəti qədim tarixə malik olmaqla böyük inkişaf yolu keçib. 19-cu əsrin sonu, 20-ci əsrin əvvəllərində bu qədim fəaliyyət növü sürətli və böyük inkişaf dövrü yaşayıb. Ölkəmizin malik olduğu müxtəlif təbii sərvətlər həm xarici iş adamlarının ölkəyə gəlməsinə, həm də yerli sahibkarlığın inkişafına əvəzsiz şərait yaradıb. Azərbaycan ən qiymətli sərvətlərdən olan neft ölkəsidir. Hələ 19-cu əsrdə Azərbaycanda neft hasilatı üzrə dünyada böyük nüfuza malik sahibkarlar




yetişib. Həmin sahibkarların ölkəmizin iqtisadi inkişafında, xüsusilə neft hasilatı və emalı sənayesinin inkişafında əhəmiyyətli rolu olub. Dövrünün böyük nüfuz sahibləri olan bu insanlar ölkədə binalar, məktəblər, teatrlar, xəstəxanalar tikdirib, əhalinin böyük hissəsini işlə təmin ediblər. Bu baxımdan Hacı Zeynalabdin Tağıyevin, Musa Nağıyevin, Murtuza Muxtarovun, Şəmsi Əsədullayevin, Seyid Mirbabayevin, Səlimovun, Mirzəyevin və onlarla başqalarının adları sahibkarlıqla məşğul olanlara əsl nümunə və həyat məktəbi olmalıdır.

**Azərbaycan Ticarət evləri**

Son illər sahibkarlığın inkişafına dəstək mexanizminin təkmilləşdirilməsi, qeyri-neft sektorunda innovativ texnologiyalara əsaslanan yeni istehsal, emal və infrastruktur müəssisələrinin yaradılması, ixrac əməliyyatlarının maliyyələşdirilməsi, real sektora investisiya qoyuluşlarının sürətləndirilməsi və özəl sektorda fəaliyyət göstərən təsərrüfat subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi sahəsində mühüm addımlar atılıb. Dövlət başçısı Azərbaycan sahibkarlarına xarici ölkələrə ixrac missiyalarını genişləndirmək sahəsində də ciddi dəstək verib. Azərbaycan Ticarət evlərinin fəaliyyət göstərdiyi ölkələrin sayı sürətlə artır. Belarus, Çin, Ukrayna, Latviya, Polşa, Birləşmiş Ərəb Əmirlikləri (Dubay) və bir sıra ölkələrdə Azərbaycan Ticarət evləri fəaliyyət göstərir.

**Davamlı inkişafın açarı...**

Bütün dünyada olduğu kimi, Azərbaycanda da kiçik və orta biznes subyektləri iqtisadiyyatın hərəkətverici qüvvəsi, dayanıqlı və davamlı inkişafın açarıdır. Azərbaycan sahibkarlarının 99 faizdən çoxunu kiçik və orta sahibkarlıq subyektləri təşkil edir. Fəaliyyətdə olan həmin subyektlərin 97,3 faizi mikro, 1,9 faizi kiçik və 0,8 faizi orta sahibkarlıq subyektləridir. Ölkəmizdə kiçik və orta sahibkarlıq subyektləri əsasən ticarət, kənd təsərrüfatı, tikinti, emal, logistika, sənaye, turizm, ictimai iaşə, nəqliyyat və digər sahələrdə fəaliyyət göstərirlər.

Qeyd edək ki, bu gün Azərbaycanda "Sahibkarlar Günü" kimi qeyd olunur. Dövlət başçısının 2016-cı il 21 aprel tarixli sərəncamına əsasən, bu gün hər il aprelin 25-də qeyd edilir. "Sahibkarlar Günü"nün qeyd edilməsi bu sahəyə göstərilən dövlət qayğısının daha bir ifadəsidir.

***Yeganə BAYRAMOVA***

# 19-cu sənədin davamı...

## Yeni sənədə 120 fiziki və hüquqi şəxs daxil edilib

Rusiyanın Ukraynaya qarşı hücumlarının gücləndiyi bir vaxtda Kiyevin müttəfiqləri və tərəfdaşları Moskvaya təzyiq üçün müxtəlif addımlar atırlar. Belə addımlardan biri də Rusiyaya qarşı sanksiyaları daha da genişləndirməkdir. Brüsseldə Avropa İttifaqı (Aİ) ölkələrinin səfirlərinin toplantısında 20-ci sanksiyalar paketinin qəbul olunması bunun növbəti göstəricisidir.




**Rusiyanın enerji sektoruna qarşı məhdudiyyətlər artıb**

Avropa Komissiyası Rusiyaya qarşı 20-ci sanksiya paketini fevralın 24-dək təsdiqləməyi planlaşdırsa da, buna nail ola bilməmişdi. Fikir ayrılığı Rusiya neft ixracında iştirak edən xarici limanlara və banklara qoyulan məhdudiyyətlərlə bağlı idi. Nəhayət, Aİ üzvləri ortaq məxrəcə gələrək sənədi qəbul ediblər. 20-ci sanksiyalar paketi Moskvaya təzyiqi artırmaq və onun Ukraynaya qarşı hərbi əməliyyatları davam etdirmək imkanlarını məhdudlaşdırmaq məqsədi daşıyır. Avropa Komissiyasının yaydığı məlumata görə, Aİ Ukraynanın suverenliyi və ərazi bütövlüyünün dəstəklənməsinə sarsılmaz sadiqliyini qoruyur. Gözlənildiyi kimi, yeni tədbirlər paketi Rusiyanı Kiyev üçün məqbul şərtlərlə danışıqlara sövq etməlidir.

Sanksiyalar məhdudiyyətlərdən yayınmaya qarşı mübarizəyə aydın şəkildə istiqamətlənib və enerji sektorunu, maliyyə xidmətlərini, ticarəti, eləcə də informasiya məkanını əhatə edir. İlk dəfə olaraq sanksiyalardan yayınmağa qarşı xüsusi mübarizə mexanizmi aktivləşdirilib. Belə ki, paket çərçivəsində Rusiyanın enerji sektorunun 36 şirkətinə, o cümlədən neftin kəşfiyyatı, hasilatı, emalı və nəqlində iştirak edən müəssisələrə qarşı məhdudiyyətlər tətbiq edilib. Aİ həmçinin "kölgə donanması" adlandırılan donanmaya qarşı tədbirləri genişləndirib: sanksiya siyahısına daha 46 gəmi daxil edilib, bununla da onların ümumi sayı 632-yə çatıb. Əlavə olaraq, Aİ-dən Rusiyaya tanker satışına məhdudiyyətlər tətbiq edilib və müqavilələrə onların Moskvanın maraqları naminə istifadəsinin yolverilməzliyini nəzərdə tutan şərtin daxil edilməsi məcburi edilib. Murmansk və Tuapsedəki Rusiya limanları, eləcə də İndoneziyadakı Karimun neft terminalı da sanksiyalara məruz qalıb. Perspektivdə G7 tərəfdaşları ilə razılaşdırıldıqdan sonra Rusiya nefti və neft məhsullarının daşınması üçün dəniz xidmətlərinin göstərilməsinə qadağa qoyulması planlaşdırılır.

Sənəddə maliyyə məhdudiyyətləri də əksini tapır. Aİ 20 Rusiya bankları ilə əməliyyatlara qadağanı genişləndirərək, məhdudlaşdırılmış maliyyə müəssisələrinin ümumi sayını 70-ə çatdırıb. Həmçinin, sanksiyalardan yan keçməyə kömək edən üçüncü ölkələrdəki banklara qarşı tədbirlər tətbiq edilib. İlk dəfə olaraq mərkəzləşdirilməmiş platformalar da daxil olmaqla, Rusiya kripto-xidmətləri ilə əməliyyatlara tam qadağa tətbiq edilib. Məhdudiyyətlər rəqəmsal rubl layihəsi də daxil olmaqla, rəqəmsal maliyyə alətlərinə də şamil edilir.

Ticarət və hərbi-sənaye kompleksinə gəlincə, paketə dəyəri 365 milyon avrodan çox olan mallara yeni ixrac məhdudiyyətləri, eləcə də 530 milyon avrodan çox məbləğdə idxal qadağaları daxildir. Məhdudiyyətlər Rusiya hərbi-sənaye kompleksini sarsıtmağa yönəlib. Hərbi məhsulların, o cümlədən dronların istehsalında iştirak edən 58 şirkət və onlarla əlaqəli şəxslər sanksiyalara məruz qalıb. Siyahıya, həmçinin Çin, BƏƏ və Qazaxıstan da daxil olmaqla, üçüncü ölkələrdən olan təchizatçılar daxil edilib.

**Sanksiyalardan yayınanlarla mübarizə gücləndək**

Sənəddə sanksiyalardan yayınmağa qarşı mübarizə də nəzərdə tutulur. Belə ki, Aİ ilk dəfə olaraq Qırğızıstana qarşı sanksiyalardan yayınmaya qarşı mübarizə mexanizmini işə salaraq, onu sanksiya tətbiq edilmiş malların Rusiyaya sistemli şəkildə təkrar ixracında ittiham edib. Ümumilikdə, yeni paketə 120 fiziki və hüquqi şəxs daxil edilib. Onlara qarşı aktivlərin dondurulması və maliyyə resurslarının təqdim edilməsinə qadağa, fiziki şəxslər üçün isə həmçinin ölkəyə giriş qadağası tətbiq edilir.

Aİ, qadağan olunmuş mediaların "güzgü" saytlarının bloklanması da daxil olmaqla, Rusiya təbliğatının yayılmasına qarşı tədbirləri gücləndirib. Həmçinin, Rusiya tərəfindən Aİ-dəki elmi və tədqiqat layihələrinin maliyyələşdirilməsinə qadağa tətbiq edilib. Paketin ayrı-ayrı əsasnamələri, ticarət, maliyyə və xidmətlər sahələrindəki tədbirlər də daxil olmaqla, Belarusa da şamil edilir. Avropa Komissiyası bəyan edib ki, sanksiya təzyiqi hərbi əməliyyatlar dayandırılana, eləcə də Rusiya-Ukrayna münaqişəsinin siyasi həlli əldə olunana qədər qorunub saxlanılacaq və gücləndiriləcək.

20-ci sanksiyalar paketinin qəbulundan sonra Aİ bu yöndə növbəti sənədin hazırlanmasını nəzərdə tutur. Aprelin 21-də Lüksemburqda Avropa İttifaqı ölkələrinin xarici işlər nazirlərinin iclasında Rusiyaya qarşı sanksiya təzyiqinin artırılmasının zəruriliyi ilə bağlı razılıq əldə olunub. Nazirlər artıq 21-ci paket üzərində də işə başlamağı təklif ediblər. Bu da təsadüfi deyil. Çünki ötən ilin noyabrında Kiyevdə ABŞ, Böyük Britaniya və Avropa İttifaqı ölkələri də daxil olmaqla 21 dövlətin nümayəndələrinin iştirakı ilə keçirilən ilk "sanksiyalar" sammitində Rusiyaya qarşı beynəlxalq sanksiya koalisiyasının gücləndirilməsi qərara alınıb.

***N.BAYRAMLI***

# Vicdan əzab verərmi?

## Fyodor Dostoyevskinin "Cinayət və cəza" romanı haqqında

əvvəli ötən saylarımızda

Həmin axşam Svidriqaylov Avdotya Romanovnanı al dillə qaldığı nömrəyə dəvət eləyib, qardaşının vəziyyətini ona anladır, əgər Dunya onun üzünə xoş baxarsa, qardaşını ölkədən çıxaracağına söz verir. Fəqət qız da mülkədarın təklifindən boyun qaçırır.

Daha sonra Svidriqaylov Sonyaya katorqada Raskolnikovun işinə yarayacaq qədər pul verir. Elə həmin gecə qaldığı mehmanxanada gülləni başına sıxıb intihar eləyir.

Raskolnikov doğmalarıyla vidalaşır, özünü təhvil verməmiş Sonya ilə görüşüb ondan xeyir-dua, bir də xaç alır. Polis bölməsində o, Svidriqaylovun intiharından xəbər tutub sarsılır, heyrət içində eşiyə çıxanda Sonyanı görür. Ardınca bölməyə qayıdıb cinayəti boynuna götürür. Yüngülləşdirici hallar nəzərə alınmaqla ona səkkiz il katorqa cəzası kəsilir. Sonya da Rodiona qoşulub Sibirə gedir. Yeddi ay sonra Razumixinlə Dunya evlənirlər. Epiloq bu abzasla bitir:

"Burada yeni bir əhvalat başlayır; bu əhvalat yavaş-yavaş yeniləşib yenidən doğulan, yavaş-yavaş bir aləmdən özgə bir aləmə keçən, bu vaxtacan tanımadığı, bilmədiyi yeni gerçəkliyə baş vuran bir adamın əhvalatıdır. Bu, yeni bir hekayətin mövzusu ola bilər, bizim dastanımız isə bununla başa çatır".

***

Raskolnikovun qatilliyi ideoloji cinayətdir, nə qədər yoxsul olsa da, o, qətli pula, sərvətə görə yox, öz ideyasını sınaqdan keçirmək üçün törədib. Dostoyevski qəhrəmanının əməli timsalında nihilizmi qaynama dərəcəsinə, ateizmi məntiqi sonluğuna çatdırır, xristian humanizmindən sapmanın hansı faciəvi nəticələr verə biləcəyini göstərməyə çalışır (növbəti romanından başlayaraq onun allahsızları cərgəsinə xristianlığın ana məzhəbinin ardıcılları - katoliklər də əlavə olunacaq). Bundan ötrü yazıçı yaradıcılığına xas maksimalizmlə əsərinin mənəvi hüdudlarını son həddəcən genişləndirib, qəhrəmanının cinayətinə bəraət verə biləsi bütün vasitələri işə salır. Raskolnikov, məsələn, zalım çara, yaxud xəsis bir tacirə qəsd eləməyi də qarşısına məqsəd qoya bilərdi; ancaq yox, o, zəhərli həşəratdan seçilməyən, dünyanın çiynində artıq yük olan iyrənc bir məxluqun qüruba gedən ömrünə balta çalır, onun cinayəti pərəstiş elədiyi, özünə örnək seçdiyi Napoleonun cinayətlərinin yanında dənizdəki damla da deyil. Bununla belə yazıçı göstərir ki, hətta bu cür murdar həşərəti da tapdayıb əzmək olmaz. İncil istisnalara yer qoymayıb, İsa Məsih birmənalı "öldürmə" deyir!

"Cinayət və cəza" romanının təməli xristianlığın günah konsepsiyasına dayanır, bir az da uzağa getsək, bu kitab İncilin baş ehkamını sübuta yetirmək üçün yazılıb - hərdən aksiomun da isbata ehtiyacı olur. Əsərin süjetini, ayrı-ayrı epizodlarını, personajlarını Bibliya, o cümlədən İncil motivləriylə, sakral arxetipik fiqurlarla, müqəddəs obrazlarla paralel, müqayisəli şəkildə təhlil eləyən mütəxəssislər çoxdur. Əksər halda qəhrəmanların adında belə həmin sakral obrazlara, dini rəvayətlərə, qədim yunan miflərinə göndərmələr var. Dostoyevski şərin hər cür təzahürünə qarşı sürgündə əzbərlədiyi İncil ayələriylə, İsa Məsih təlimiylə çıxır. Ondan ötrü nihilizmin, anarxizmin yaxşı tərəfi, xeyir üzü yoxdur, İsanın təliminə uyğun gəlməyən hər cür nəzəriyyə şərdir. Bir əsərində qəhrəmanının diliylə deyirdi ki, əgər Haqla Məsihin yolları haradasa ayrılarsa, o, Haqqın ətəyini buraxıb Məsihin iziylə gedər. Bu baxımdan, polifonik sənətkar kimi ad çıxarmış Dostoyevski qədər tendensiyalı yazıçı az-az tapılar. Fəqət şeytani fikirlərə təbiətən meyilli dahi yazıçı rəqiblərinin ağzını yummur, onlara sözlərini sona qədər deməyə, əməllərini son həddəcən işlətməyə imkan verir, şəri bütün gücüylə meydana çıxarmaqla xeyirin də gücünü, kəramətini artırmaq məqsədi güdür.

Özündən sonrakı ədəbiyyata da Dostoyevskinin xeyirindən çox şəri təsir göstərib. İyirminci yüzilin modernist yazıçıları arasında Raskolnikov Mışkindən, İvan Karamazov Alyoşa Karamazovdan müqayisəyə gəlməz dərəcədə populyardır. Yazıçı həm həyatda, həm də sənətdə şər ideyalarının xeyir ideyalarından qat-qat bol məhsul verdiyini görsəydi, yəqin xoşnud olmazdı. Qəribədir ki, onun diaqnoz qoyduğu, anatomiyasını açdığı, obrazlarla vücuda gətirdiyi şər ideyalar bir-birinə daban-dabana zidd güclərin - həm qırmızı imperiyanın (ateistlər, sosialistlər), həm də qəhvəyi imperiyanın (nihilistlər, antixristlər) quranların cibindən çıxdı. Knyaz Mışkinin, Alyoşa Karamazovun səsi topların gurultusundan eşidilməz oldu. Dostoyevskini özünün üç-dörd müəllimindən biri sayan Nitsşe də ustadının yox, Raskolnikovun iziylə getdi, hamının dərdini, günahını üstünə götürən ilahi insanı yox, hamını nallı çəkmələrinin altında qoyub keçən fövqəlinsanı özünə qəhrəman seçdi. Raskolnikov kimi Nitsşe də bəşəriyyəti iki qismə - üst insanlara, bir də aşağılara, kölələrə, sürülərə böldü, Apollonu devirib tanrılıq taxtına Dionisi çıxardı, nəticədə onu kamına çatdırmayan tərifli tanrısının əlində həlak oldu.

Raskolnikov uşaq vaxtı atasıyla yol gedəndə küçədə bir dəstə vəhşiləşmiş sərxoş mujikin bir qoca, heysiz atı döyə-döyə öldürdüyünü gözləriylə görmüşdü, əlindən bir şey gəlməsə də, əzabkeş atın qanlı üzündən öpmüşdü, qatillərə yumruq-təpik atmışdı. O vaxtdan onun qəlbindən o yara silinməmişdi, o müdhiş mənzərə tez-tez yuxusuna girirdi. Sələmçi qarıdan da bəlkə həmin yorğun yabının qisasını alırdı, ürəyinin dərinliyində baltanı bəlkə də qarıya yox, zavallı atı vəhşicəsinə qətlə yetirən həmin o azğın mujiklərin kəlləsinə çalırdı. İşə bax ki, Raskolnikovun gördüyü o hadisədən təxminən iyirmi beş il sonra Nitsşe də yiyəsinin küçədə qəddarcasına qamçıladığı atın boynuna sarılıb dəli olmuşdu, Raskolnikovdan fərqli olaraq onun nifrəti öz başında çatlamışdı. Buna Dostoyevskinin peyğəmbərliyi deməyəsən, nə deyəsən! Pisi pisliklə sağaltmağa çalışmaq, şəri qəlbə yaxın buraxmaq, şeytana könül vermək bu qədər xatalıdır.

***

Şərdən xeyir törəməz, şərdən ancaq şər törəyir. Şər xeyirin dirçəlişinə yalnız dolayısıyla təkan verir. Raskolnikovun qarının bacısını öldürmək kimi bir planı yoxuydu, di gəl, birinci qətlin yaratdığı şərait onu ikinci canı da almağa vadar elədi. O, qəddar sələmçinin heç kəsə fayda verməyən sərvətini xeyirxah məqsədlərə yönəldəcəyini düşünürdü, fəqət ona o sərvətin bir qəpiyini də xərcləmək, o pullarla kiminsə yarasını sağaltmaq qisməti olmadı, ola da bilməzdi. Aqressiv nihilizmin, radikal ateizmin məntiqi nəticəsi olan bolşevik xuntası da xalqların neçə min illik zəngin dinimənəvi irsinin üstündən qara xətt çəkib düşünən başları kəsməklə, ziyalı elitanı rəiyyət səviyyəsinə salmaqla (halbuki tərsinə olmalıydı), varlıların sərvətini mənimsəyib kasıblara dağıtmaqla yoxsullara cənnət vəd eləyirdi. Nəticədə məlum oldu ki, cinayətlər silsiləsi, dövlət terroru tarixdə görünməmiş miqyasa çatıb, aradan on illər keçsə də, inqilab bitməyib, düşmənlərin, casusların kökü kəsilməyib, əvvəlkindən qat-qat qəddar, savadsız, mənəviyyatsız saxta elita formalaşdırılıb, aclıq, qıtlıq böylə nökəri bərabərləşdirib, xoşbəxtlik vədləri isə çoxdan, lap çoxdan unudulub. Bundan sonra insanlar xoşbəxtlik sorağıyla yenidən məbəd qapılarına üz tutdular, dindən, Tanrıdan nicat dilədilər. Bəli, Raskolnikovun sonradan epidemiyaya, hətta pandemiyaya çevrilən mərəzinin fəsadlarını cəmi insanlıq, o cümlədən Azərbaycan xalqı bu gün də yaşamaqdadır. Dostoyevskinin peyğəmbərliyi gerçəkdən heyrətamizdir!

davamı növbəti sayımızda



***F.Uğurlu***

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



## Şənbə üçün nəzm



Ara qarışıbdı, məzhəb itibdi,
Qardaşın qardaşa yanmayır canı,
Sənə nə düşüb ki, bu basabasda,
Düşüb axtarırsan kitabxananı.

Bu günlər heç kəsi bəyənmir heç kəs,
Hamı özəl olub, güdür özünü.
İndi mərifət bir qəpiyə dəyməz,
Kitab, kitabxana dedi sözünü.

İndi oyun gedir, sərvət oyunu,
Hər tində bank çıxır qarşına sənin.
Bir də kitabxana gəzib soruşma,
Yoxsa, söz qəhətdi başına sənin.

***

Hər yerdə yol kəsir yolu,
Belə dünyanı neynirəm.
Yolu yolkəsənlə dolu,
Belə dünyanı neynirəm.

Adamları ikiüzlü,
Dili teyxa haça sözlü.
Üstü açıq, altı gizli,
Belə dünyanı neynirəm.

Otları var acı, şirin,
Məskənidir, xeyrin, şərin.
Adlatmasıdır bəşərin,
Belə dünyanı neynirəm.

Yolçu yolda - necə olar,
Günü - gündüz, gecə olar.
Yol qurtarar, o heç olar,
Belə dünyanı neynirəm.

Səfası çox, vəfası yox!
Cəfası çox, səfası yox!
Qadağa çox, rəvası yox!
Belə dünyanı neynirəm.

Haqdır, demir düz deyənə
İşıq vermir gözləyənə
Şərikdir şər söz deyənə,
Belə dünyanı neynirəm.

Bu gəraylı - yeddibənddi!
Birər dərddi hər bir bəndi.
Bu - açılmaz qıfılbəndi,
Belə dünyanı neynirəm!

***

Öz hüsnü var yaxın yerdə ayrı olmağın,
Ətəkləri bənövşəli kiçik bir dağın.
Quzeyində mən olaram, güneyində sən,
Buna hicran deyirsən?!
Bir günəşin zərrələri isidir bizi,
Bir küləyin buz nəfəsi üşüdür bizi.
Bir buluddan iki damcı yağış yağırsa,
Biri sizin, biri bizim bağçaya düşür.
Sizin çığır gördüyüm o köhnə çığırsa,
Orda ayaq izlərimiz hər gün görüşür.
Buna hicran deyirsən?!

Birdir qürub çağımız da, səhərimiz də,
Bir ulduzun altındadır evlərimiz də.
Bir arzumuz iki qəlbdə yuva salıbdır,
Bircə sizdən bizim evə
köçmək qalıbdır.
Buna hicran deyirsən?!







*Fikrət Sadıq*

Sənin Ana dilin dövlət dilidir,
Sən Ana dilini aləmə bildir.
Yoxsa özgə dildə lövhələr asmaq,
Sənə görə hələ günah deyildir...

Kim icad elədi bu yaltaq dəbi?
Bu ikiüzlülüyün nədir mətləbi?!
Özün yaz, özün də oxuya bilmə,
Təki razı qalsın beş-üç əcnəbi.

Dünyanı gəz, axtar, gör yad elində,
Bir yazı varmola sənin dilində?
Sən sözdə azadsan, işdə mütisən,
Kiməsə tabesən hər əməlində.

***

Bir yerdə soruşdum gəlib keçəndən,
Tanıyan olmadı kitabxananı.
Çörək hayındadı cümlə el-vətən
Kitab oxumağa indi vaxt hanı?

Lap şair şairin, alim alimin,
Kitabını açmır, dəyişib zaman.
Ən yaxın dostlar da biri-birini,
Ya qəsdən oxumur, ya paxıllıqdan.

# Serial oxucusu

## Həm film çəkir, həm də özünə baxır...



*Məqsəd Nur*

Əslində “bu ayinədə” özünə, ətrafında baş verənlərə bir daha nəzər yetirməklə başını qatır. Axı industrial sistemin daxilində başqa necə yaşasın? Serial həm özünü, həm qonum-qonşunu, həm də gündəlik sosial varlığın müxtəlif tor-torbalarında ilişib qalmaqlığı əlçatan edir, az qala bir addımlığına, evinin içinə, əlinin altına gətirib çatdırır. Buyur, seriala baxıb dolaşıqları çözə bilirsənsə, çöz. Üstəlik, tarixin, mədəniyyətin, hətta elmin haradasa uzaqlarda itib qalmış uydurmalarına qərq ol. Müasir dünyanı yönləndirən təmayüllərin kökündə manipulyasiya var, serial isə bizim üçün hazırlanmış, üstü bəzəkli Hollivud qutusudur. İçindən bomba da çıxa bilər, əxlaq və davranış öyrədiciliyi də...

Axır vaxtlar kitab, ədəbi tərcümə nəşrlərində usta redaktor və tərcüməçilərin işlətdiyi bənzər tezislər maraq doğurur. Onlar axıcı dilə, sadə ibarələrə, “mürəkkəb problem”lərin “sadə” həllini “tapan” mətnlərə göydəndüşmüş alma kimi sevinirlər. Bəzən lap uşaq təki. Əlbəttə, bu qədər informasiya torunun içərisində sadə həqiqətlərin ədəbiyyatını tapanda necə sevinməyəsən? O da ola, kütləvi mədəniyyətin, müasir folklorun təkrar “istehsalı” ilə məşğul olan hər kəsin özünü “uzman” hesab etdiyi bir çoğrafi ərazidə.

Əslində seriallar da rus demişkən, ekrandan “çtivo”dur (oxu materialı), dedektiv, fantastika və sair janrlar kimi. Sadəcə bu “baxış materialı” evdəki ekran, planşet, smart qurğu qədər yaxınlaşdırılıb. Buna uyğun da indi oxu və baxış materialları ilə formalaşan rejissor, müəllif kütlələri əmələ gəlir Görüntü, asılılıq yaradan priyomlar, hətta estetik zövqvericilik də öz yerində...

Seriallarımızın ədəbiyyatın adından faydalanmaqla məhsul yaratmasından azca narahat olmağa dəyər. Serial olsun, sadəcə, “Mədəniyyət -2040” konsepsiyasında ədəbiyyatla birləşmiş ssenarilərin intiqama, qəddarlığa və narkotikə yönləndiriciliyinə diqqət yetirilməlidir. Ədəbiyyat heç bir halda xidmət sahəsinə, istirahət zonasına çevrilə bilməyəcək. Buna cəhd etmək belə, risklidir...

Cəmiyyət də bir arı pətəyidir, burada kommunikasiya bütöv şəbəkənin varlığı deməkdir. Həyatın axarı, səliqə-səhmanı pozulan kimi pətək çalxalanır. Köç başlayır. Fiziki köç bir yana, hal-hazırdakı zehni köçün bir qismi həm də seriallarda yaşayır. Onu Ədəbiyyata daraşdırmağa nə hacət?

# Ağcaqanad sancması ilə başlayan təhlükə

Malyariya dünyada ölümə səbəb olan təhlükəli xəstəliklərdən biridir və ən çox Afrikada yayılıb. Bu xəstəlik ağcaqanadlar vasitəsilə ötürülür, xüsusilə, Sahara bölgəsində geniş yayılıb. Hər il təxminən 300 milyondan artıq insan malyariyaya yoluxur və onların yarım milyona qədəri həyatını itirir. Malyariya daşıyan ağcaqanad insanı sancdıqda, parazit birbaşa qana daxil olur və qısa müddət ərzində qan dövranı vasitəsilə qaraciyərə çatır.

Parazitlər qaraciyərin divarlarına yapışır, böyüyür və partlayıb, çoxalır. Onların çoxalma funksiyası sürətlə baş verir. Getgedə virus eritrositlərə daxil olmağa başlayır. Əksər hallarda simptomlar özünü yoluxmadan sonra 10 gün-4 həftə ərzində büruzə verir, lakin insan halsızlıq və zəifliyi həm 8 gündən sonra, həm də 1 ildən sonra hiss edə bilər.

Yeri gəlmişkən, bu gün Ümumdünya Malyariya ilə Mübarizə Günü kimi qeyd olunur. 2007-ci ildə Ümumdünya Səhiyyə Təşkilatının 60-cı sessiyasında da bu xəstəliklə səmərəli mübarizə aparmaq barədə qərar qəbul edilib.




### Virusun məkanı - damarlar, limfalar, qaraciyər

Qədim dövrlərdə güman edilirdi ki, malyariyanın yaranmasına səbəb çirkli hava, natəmizlik, insanların heyvanlarla təmasda olmasıdır. Özü də bu xəstəliyə daha çox gənclərdə rast gəlinirdi.

Hələ eramızdan əvvəl mövcud olan bu xəstəlik haqqında ilkin məlumatlara Hippokratın əlyazmalarında rast gəlinib. Qədim Yunanıstanda, Ərəb ölkələrində, Yaponiyada insanların kütləvi ölümünə səbəb olan bu xəstəliyə Tutanxamon da yoluxub. Həmin dövrlərdə mütəxəssislər güman edirdi ki, bu, düşmənlərin hazırladıqları zəhərdir, hava vasitəsilə insanlara ötürülür. XIX əsrdə isə fransalı alim Ş.Laveran malyariyanın virus olduğunu aşkarlayıb. 1894-1899-cu illərdə isə amerikalı alim P.Menson malyariyanın ağcaqanadların dişləməsi nəticəsində yarandığını aşkarlaya bilib.

Kimlər risk altındadır?

-İstirahətə gedənlər
-Su kənarında çox gəzməyi sevənlər
-Dağlıq ərazidə yaşayanlar
-Ağcaqanad dişləməsinə önəm verməyənlər
-İmmuniteti zəif olanlar
-Pəhriz saxlayanlar.

### Müalicə necə aparılmalıdır?

Xəstəliyin müalicəsi mümkündür. Amma həkimə vaxtında müraciət etmək lazımdır. Müalicənin müddəti malyariyanın diaqnoz olunmuş formasından, xəstənin yaşından asılıdır. Allergiyaya meyilli olan insanlarda xəstəliyin gedişatı daha ağır olur. İnsanların əksəriyyəti malyariya parazitinə yoluxduqlarını dərk edə bilmirlər, buna görə də çox vaxt gec müraciət edirlər. Ölüm halları əsasən, tropiki malyariya vaxtı baş verir. Ölkəmizdə isə daha çox üçgünlük malyariyaya rast gəlinir.

### Profilaktik tədbirlər...

Malyariyanın aktiv olduğu bölgələrdə tez-tez xəstəlik əleyhinə dərman qəbul etmək məsləhətdir. Ağcaqanad sancmalarından qorunmaq lazımdır. Evdə ağcaqanadların olmamasına nəzarət edilməlidir. Ən yaxşısı isə ağcaqanadların çoxaldığı mövsümdə bədənin açıq yerlərinə həşəratlardan qorunmaq üçün kremlər çəkilməlidir. Ağcaqanadların yumurta qoya biləcəyi yerlərdən su yığılmalarını ləğv etmək lazımdır.

### Xəstəliyə qarşı ən təsirli dərman

Malyariya zamanı xəstədə anemiya halları çoxalır. Buna görə də xəstəyə çoxlu alma və ət yeməkləri vermək lazımdır. Malyariya zamanı çoxlu göyərti, nar yemək, çuğundur şirəsi içmək orqanizmin müqavimətini artırır, xəstəliyə qarşı mübarizəni gücləndirir.

Digər mənbələrə görə, malyariya zamanı bol qatıq yemək və portağal şirəsi içmək məsləhətdir.

***Yeganə BAYRAMOVA***

*İdman*

## Azərbaycanı fərdi Avropa çempionatında 12 qadın şahmatçı təmsil edəcək



Gürcüstanın Batumi şəhərində keçiriləcək qadınların fərdi Avropa çempionatında iştirak edəcək Azərbaycan şahmatçıları bəlli olub.

Azərbaycan Şahmat Federasiyasından AZƏRTAC-ın sorğusuna cavab olaraq bildirilib ki, turnirdə ölkəmizi 12 iti zəka sahibi təmsil edəcək.

Yığmanın heyətində Ülviyyə Fətəliyeva, Günay Məmmədzadə, Gövhər Beydullayeva, Gülnar Məmmədova, Ayan Allahverdiyeva, Türkan Məmmədyarova, Səbinə İbrahimova, Nərmin Abdinova, Zeynəb Məmmədyarova, Məryəm Ağaverdiyeva, Lalə Hüseynova və Mələk İsmayıl medallar uğrunda mübarizə aparacaqlar.

Qeyd edək ki, turnir mayın 25-dən iyunun 5-dək təşkil olunacaq.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5198**
**Sifariş: 522**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova